*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı | 23 iyun 2023-cü il №24 (9032) | www.muallim.edu.az muallim@edu.gov.az

## BU SAYIMIZDA

### Həssas yanaşma, vətəndaş məmnunluğu



səh.2

### Təhsildə əlçatanlıq, bərabər imkanlar



səh.2

### Geniş imkan, yüksək təhsil



səh.3

### "Şəxsi inkişaf və karyera planlaşdırması"



səh.8

### Kənd məktəbini Avropa platformasında tanıdan müəllim



səh.12

## Gənc müəllimlər III forumunu keçirdi

İyunun 17-də Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının (AGMA) təşkilatçılığı ilə Gənc Müəllimlərin III Forumu keçirilib. Forumda elm və təhsil naziri Emin Əmrullayev, gənclər və idman naziri Fərid Qayıbov, ölkəmizin müxtəlif bölgələrini təmsil edən 400-ə yaxın gənc müəllim və digər qonaqlar iştirak ediblər.

Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının sədri Rüfət Əsədzadənin fikrincə, hər dəfə sinfə girəndə həyəcanlanmaq və o həyəcanı idarə edə bilmək müəllimliyin sirridir. Təşkilat sədri müəllimlərin bu həyəcanı idarə edə bilmələri üçün onlara peşəkar dəstək verildiyini deyib: "Gənc Müəllimlər Assosiasiyası müəllimlərin peşəkar inkişafında iştirak edir. Artıq üzvlərimizin sayı 7000-dən yuxarıdır və bu, o deməkdir ki, ölkənin bütün regionlarında müəllimləri əhatə edə bilmişik".

Assosiasiya fəaliyyətdə olduğu dövrdə müəllimlərə sistemli dəstək verib. Belə ki, ötən iki il ərzində assosiasiya 4 istiqamətdə inkişaf planı hazırlayıb və istiqamətlərin hamısı müəllimlərin peşəkarlığının artırılmasına hesablanıb.

⇨Ardı səh.4

## Dünya Təhsil Forumunun direktoru "Yeni çağırışlar"da

26 iyun saat 19:00-da Dünya Təhsil Forumunun direktoru Dominik Savaj "Yeni çağırışlar" müzakirə proqramında qonaq olacaq. Dominik Savaj ilə daha təhsilli gələcək barəsində danışılacaq.

Dominik Savaj otuz ildən çox Britaniya Təhsil Təchizatçıları Assosiasiyasının baş direktoru olub. Uzun illər müxtəlif təhsil komitələrinin, Böyük Britaniya Hökumətinin Təhsil Texnologiyaları üzrə Fəaliyyət Qrupu və Beynəlxalq Təhsil Şurasının üzvü kimi fəaliyyət göstərib.

Qeyd edək ki, proqram Elm və Təhsil Nazirliyinin rəsmi "Facebook" səhifəsi üzərindən Azərbaycan dilinə tərcümə ilə canlı yayımlanacaq.




# Sertifikasiya – davamlı inkişaf



## Sertifikasiya

### həyəcanı, imtahan sevinci...

İyunun 20-dən dövlət ümumi təhsil müəssisələrində çalışan təhsilverənlərin sertifikatlaşdırılması prosesinin test imtahanı mərhələsinə başlanılıb. Bu il sertifikasiya imtahanı 28 min müəllim üçün keçirilir. 20-23 iyun tarixlərində 20000-ə yaxın təhsilverən ibtidai sinif, 24 iyun tarixində 8500-dən çox müəllim Azərbaycan dili və ədəbiyyat üzrə sertifikatlaşdırma prosesinin test imtahanı mərhələsinə cəlb olunub.

Sertifikatlaşdırmanın ilk mərhələsi ölkənin 13 müxtəlif şəhəri üzrə 23 imtahan mərkəzində təşkil olunub. İmtahanlar gün ərzində, səhər və günorta olmaqla iki mərhələdə təşkil edilir.

Test imtahanı mərhələsində 120 dəqiqə müddətində tədris olunan fənn üzrə ümumtəhsil proqramları, tədris metodikası və təlim strategiyalarına aid 60 sual təqdim edilir. Hər düzgün cavab 1 balla qiymətləndirilir. Test imtahanında azı 30 bal toplamış təhsilverənlər müsahibə mərhələsinə keçmək hüququ qazanırlar.

Test imtahanı mərhələsinin nəticələri üzrə balların hesablanması avtomatlaşdırılmış rejimdə proqram təminatı vasitəsilə həyata keçirilir və imtahan başa çatdıqdan dərhal sonra namizədə elan edilir.

⇨Ardı səh.7

# Məktəblilərin uğur estafeti

## Avropa Fizika Olimpiadasında

Almaniyanın Hannover şəhərində Avropa Fizika Olimpiadası təşkil edilib. 5 məktəbli ilə təmsil olunan komandamız sözügedən yarışda uğurla çıxış edərək 1 gümüş, 1 bürünc medal və 1 həvəsləndirici mükafat qazanıb. Onlardan Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin XI sinif şagirdi Murad Abdulkərim gümüş medal, Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyinin XI sinif şagirdi Uğur Əzim bürünc medal, Quba rayonu Fizika, riyaziyyat və informatika təmayüllü liseyin X sinif şagirdi Murad İsmayılov isə həvəsləndirici mükafat qazanıb.

Qeyd edək ki, məktəblilərimiz sözügedən olimpiadada 2018-ci ildən etibarən iştirak edirlər və bu günə kimi 2 gümüş, 9 bürünc medal, 6 həvəsləndirici mükafat əldə ediblər.







## Əl-Biruni Beynəlxalq Kimya olimpiadasında

11-18 iyun 2023-cü il tarixlərində Özbəkistanın Xivə şəhərində Əl-Biruni adına I Beynəlxalq Kimya Olimpiadası keçirilib. Olimpiadada 16 ölkədən məktəblilər iştirak ediblər.

Ölkəmiz sözügedən yarışda 4 məktəbli ilə təmsil olunub. Belə ki, Türkiyə Dəyanət Vəqfi Bakı türk liseyinin X və XI sinif şagirdləri Nihad Hacızadə və Dəniz Səttarlı, Gəncə şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin XI sinif şagirdi Həmid Xəlilov, Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin XI sinif şagirdi Selcan Şəfizadə olimpiadada uğurla çıxış edərək bürünc medal qazanıblar.

# Həssas yanaşma, vətəndaş məmnunluğu

## Elm və təhsil naziri Qazaxda vətəndaşları qəbul edib





İyunun 19-da elm və təhsil naziri Emin Əmrullayev Qazax rayonunda vətəndaş qəbulu keçirib. Qəbulda Qazax, Ağstafa, Tovuz, Şəmkir və Gədəbəy sakinləri iştirak ediblər.

Qəbuldan əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Qəbulda vətəndaşlar, əsasən, müəllimlərin işə qəbulu və yerdəyişməsi, xarici diplomların tanınması, fəxri adların verilməsi, həmçinin digər məsələlərlə bağlı müraciətlər ediblər.

Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları diqqətlə dinləyib, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

# Yeniləşən məktəb infrastrukturu

## Emin Əmrullayev Qazaxda məktəb açılışında iştirak edib

İyunun 19-da elm və təhsil naziri Emin Əmrullayev Qazax rayonuna səfəri çərçivəsində Mehdi Hüseyn adına Humanitar və təbiət təmayüllü məktəb-liseyin yeni tikilmiş tədris binasının açılışında iştirak edib.

Açılış mərasimində Qazax Rayon İcra Hakimiyyəti başçısının müavini Gülaya Həsənova və Qazax-Tovuz Regional Təhsil İdarəsinin müdiri Arslan Hacıyev də iştirak ediblər.

Məlumat verilib ki, 4 mərtəbədən ibarət məktəbdə 28 sinif otağı, 2 fizika, 2 kimya, 2 biologiya, 2 informatika kabineti, məktəbəhazırlıq və tibb otaqları, 244 nəfərlik akt zalı, qapalı və açıq idman meydançaları, kitabxana, 172 yerlik bufet mövcuddur.

Daha sonra tədbir iştirakçıları məktəbdə yaradılmış şəraitlə tanış olublar.





# Təhsildə əlçatanlıq, bərabər imkanlar

Ölkəmizdə yeniyetmə və gənclərin təhsil almasına, bir mütəxəssis və layiqli vətəndaş kimi formalaşmasına dəstək məqsədilə bir sıra sosialyönümlü layihələr həyata keçirilir. Bu istiqamətdə son illər atılan ən mühüm addımlardan biri Təhsil Tələbə Krediti Fondunun yaradılmasıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 17 iyun 2021-ci il tarixli müvafiq fərmanına əsasən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində Təhsil Tələbə Krediti Fondu yaradılmışdır. Fondun yaradılmasında əsas məqsəd təhsilə əlçatanlığı təmin etmək, təhsil almaqda bərabər imkanlar yaratmaqdan ibarətdir.

Qeyd edək ki, Təhsil Tələbə Kreditinin (TTK) sosial və standart növləri mövcuddur. Sosial təhsil tələbə kreditindən yalnız sosial həssas təbəqəyə aid ailələrin üzvü olan tələbələr istifadə edə bilər. Onu da bildirək ki, Təhsil Tələbə Krediti üzrə müraciətlərin edilməsi, qeydiyyatı, tələbənin statusunun və hüququnun müəyyən edilməsi və digər əməliyyatlar bu məqsədlə yaradılan elektron informasiya sistemi vasitəsilə həyata keçirilir.

Qısa müddət ərzində 19388 nəfər tələbə kredit alıb. Statistikaya nəzər saldıqda görərik ki, Təhsil Tələbə Krediti Fonduna yarandığı gündən 12 iyun 2023 tarixinə qədər ümumilikdə 26109 müraciət daxil olub. Bu müraciətlərdən 19388-i müsbət cavab alıb və kreditlər rəsmiləşib.

Cari ilin statistikasına gəldikdə isə təkcə 2002-2023-cü tədris ilində Təhsil Tələbə Krediti üçün 15513 tələbənin müraciəti qeydə alınmış, onlardan 12574 tələbənin krediti üçün müraciəti rəsmiləşdirilmiş və təhsil haqları müvafiq olaraq təhsil müəssisələrinə köçürülmüşdür. Onu da qeyd edək ki, cari ildə müraciət edənlərdən 4588 tələbə sosial, 7986 tələbə isə standart təhsil tələbə kreditindən yararlanmışdır. Təhsilalanların təhsil səviyyələri üzrə təsnifatına gəldikdə isə cari ildə müraciətləri rəsmiləşmiş 12574 tələbədən bakalavr səviyyəsi üzrə - 8857 tələbə, magistratura səviyyəsi üzrə - 3170 tələbə, orta ixtisas səviyyəsi üzrə isə - 547 tələbə kreditdən yararlanmışdır. Gender bərabərliyi bölgüsünə gəldikdə isə kreditin imkanlarından 5226 kişi, 7348 qadın tələbə istifadə edib.

Fürsətdən istifadə edib Təhsil Tələbə Krediti Fondunun yaratdığı imkanlardan yararlanan tələbələr və onların valideynləri ilə söhbət edib fikirlərini öyrəndik.

## 19388 gənc Təhsil Tələbə Krediti Fondunun xidmətindən yararlanıb



### "Fonda müraciət edərək bu fürsətdən faydalandım"

Qərbi Kaspi Universitetinin III kurs tələbəsi Hüseyn Zeynallı Təhsil Tələbə Krediti Fondunun yaratdığı imkanlardan maksimum dərəcədə istifadə etdiyini deyib: "Oxuduğum universitet illəri ərzində bir çox aktiv tələbələrdən olmuşam. Özüm də fondda könüllü olaraq işləmişəm. Könüllü fəaliyyətim bitdikdən sonra da inkişafımıza dəstək olan fond bizim üçün ödənişsiz ingilis dili kursları təşkil etdi. Fondun mənə ən böyük dəstəyi isə təhsil haqqımın ödənilməsi ilə bağlı ayrılan kredit oldu. Bu ilin qış smestrində ödənişi etmədiyim üçün imtahanlara buraxılmırdım. Fonda müraciət edərək bu fürsətdən faydalandım və ən yüksək imtahan nəticələrinə nail oldum. Belə bir fəaliyyəti olan qurum yaratdığına görə ölkə Prezidenti cənab İlham Əliyevə minnətdarlığımı bildirirəm.

### "Rahat təhsil almağımı təmin etdim"

Bakı Dövlət Universitetinin III kurs tələbəsi Ayxan İsgəndərov 588 balla ali təhsil ocağına daxil olduğunu deyir. O, hazırda həmin fakültənin SABAH qruplarında təhsil aldığını bildirir: "Təhsil Tələbə Krediti Fondunun yaratdığı imkanlardan faydalanan gənclərdən biri də mənəm. Qeyd edilən kreditin sosial növündən yararlanmışam. Krediti 2%-lik şərtlərlə götürmüşəm. Bu krediti götürməklə rahat təhsil almağımı təmin etdim. Dövlətimizin biz gənclərə yaratdığı hər cür şərait məni cox sevindirir. Bu fondun yaradılması gənclərin təhsil imkanlarının artırılması istiqamətində atılan ən mühüm addımlardandır".

### "Təhsil Tələbə Krediti olmasaydı, bəlkə də mən magistraturaya daxil olmazdım"

Odlar Yurdu Universitetinin Magistratura pilləsi üzrə 1-ci kurs tələbəsi Pünhan Heydərov biznesin idarə edilməsi ixtisası üzrə təhsil alır. O, bakalavr pilləsi üzrə təhsil alarkən Təhsil Tələbə Krediti Fondundan dəstək aldığı üçün magistratura üzrə təhsilini davam etdirdiyini deyir: "Təhsil Tələbə Krediti olmasaydı, bəlkə də mən magistraturaya daxil olmazdım. Əksər tələbələrin yararlandığı təhsil tələbə krediti onların tələbəlik illərini doya-doya yaşamağa dəstək olur".

### "Kreditin verilməsi bizim üçün böyük bir şans oldu"

Qərbi Kaspi Universitetinin I kurs tələbəsi Sadıq Rəcəblinin valideyni Səbinə Qasımova da Təhsil Tələbə Krediti Fondundan razı qaldığını, bu fondun yaratdığı imkanlar sayəsində övladının təhsil aldığını söyləyir: "2022-ci ilin sentyabr ayında biz qaydalara uyğun olaraq fonda müraciət etdik. Bizə fonddan müsbət cavab verdilər. Kreditin verilməsi bizim üçün böyük bir şans oldu. Əgər bu kredit olmasaydı, mən düşünürəm ki, övladım heç cür həmin universitetdə təhsil ala bilməyəcəkdi. Maddi durumumuz buna imkan vermirdi. Belə bir şəraitin yaradılmasına görə zəhməti keçənlərə xüsusi təşəkkürümü bildirirəm".

**Niyazi RƏHİMOV**

# Xaricdə təhsil üzrə Dövlət Proqramı barədə MƏLUMAT

"Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın 6.1-ci bəndində verilən prioritet ixtisas sahələri ilə yanaşı, cari ildə "Times Higher Education", "QS World University Rankings" və "Academic Ranking of World Universities (Shanghai)" reytinq sistemlərində yalnız ilk onluqda yer almış ali təhsil müəssisələri tərəfindən təqdim olunan, müvafiq siyahıda *(https://dp.edu.az/uploads/fileuploads/2023/03/35501f904e354bd7b0d57d13097cebc3.pdf)* yer almayan istənilən ixtisas sahəsi üzrə bakalavriat və magistratura proqramlarına qəbul almış şəxslər təqaüd üçün müraciət edə biləcəklər.

Sənəd qəbulu 14 iyul 2023-cü il tarixinədək davam edir. Müvafiq elan *(https://dp.edu.az/az/news/3548)* mətni ilə keçiddən tanış ola bilərsiniz.

Qeyd edək ki, tədris ilinin başlamasına az vaxt qaldığı üçün müraciətlərin qısa müddətdə edilməsi tövsiyə olunur.

# Təhsil xidmətlərinin "ASAN xidmət" mərkəzlərində əhatə dairəsi genişlənir




Daha 5 "ASAN xidmət" mərkəzində elm və təhsil xidmətləri göstərilməsinə başlanılıb. Sözügedən mərkəzlərə 6 saylı Bakı, həmçinin Quba, Şamaxı, Bərdə və Sabirabad "ASAN xidmət" mərkəzləri aiddir. Vətəndaşlar mərkəzdə müxtəlif təhsil xidmətlərindən yararlana bilərlər.

Bununla yanaşı, Bakıdakı 5 və 7 saylı "ASAN xidmət" mərkəzlərində, 2 saylı Sumqayıt, 1 saylı Gəncə, Mingeçevir, Şəki, Tovuz, Masallı, İmişli və Salyan Regional "ASAN xidmət" mərkəzlərində də təhsil xidmətləri vətəndaşlara təqdim olunur.

Xidmətlər haqqında daha ətraflı məlumatı aşağıdakı keçiddən əldə edə bilərsiniz:

*https://asan.gov.az/az/category/asan-xidmetler/funksional-yardimci-xidmetler/elm-ve-tehsil-nazirliyi-terefinden-goesterilen-xidmetler*

# "İnsan resursları zirvəsi 2023"



"Təhsil mexaniki deyil, ciddi psixoloji inkişaf prosesidir. Valideynlərarası münasibətlər, valideynlərin elmə, kitab oxumağa marağı uşaqların inkişafında mühüm rol oynayır. Biz müəllimlərin peşəkar keyfiyyətini artırmaqla əmək bazarına daxil olan insanların peşə səriştələrini də artıra bilərik".

## Elm və təhsil naziri tədbirdə iştirak edib

Bu sözləri elm və təhsil naziri Emin Əmrullayev iyunun 21-də keçirilən "İnsan resursları zirvəsi 2023" tədbirinin açılış mərasimində çıxışı zamanı deyib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin təşkilatçılığı ilə keçirilən tədbir "Gələcəyə qayıdış" devizi altında təşkil edilib.

Tədbirin məqsədi insan kapitalına əsaslanan gələcəyə hazırlıqlı cəmiyyətin formalaşmasına zəmin yaratmaq, bu istiqamətdə peşəkarlarla müzakirələr aparmaqdır.

Tədbirdə bir sıra dövlət qurumlarının rəhbərləri, beynəlxalq təşkilatların Azərbaycandakı nümayəndələri, xarici ekspertlər, insan resursları üzrə mütəxəssislər, millət vəkilləri, dövlət, həmçinin özəl sektor nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Qeyd edək ki, iki gün davam edəcək tədbir çərçivəsində çıxışlar, panel müzakirə və təlimlər təşkil olunacaq.



# "İT - Akademiya" məzunlarının mükafatlandırma mərasimi keçirilib



Elm və Təhsil Nazirliyinin və İqtisadiyyat Nazirliyinin birgə dəstəyi ilə "Alqoritmika" Beynəlxalq Riyaziyyat və Proqramlaşdırma Məktəbinin nəzdində fəaliyyət göstərən "İT - Akademiya" tələbələrinin "İkinci Dalğa" buraxılış tədbiri keçirilib. Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev çıxış edib. O, kursun məzunlarını təbrik edərək bu layihənin əhəmiyyətini inkişaf edən iqtisadiyyat və əmək bazarının dəyişən tələbi ilə müqayisə edərək qiymətləndirib. Onun fikrincə, artıq təhsil, sadəcə uşaqlar və gənclərlə bağlı deyil: "Ömürboyu təhsil" deyilən anlayış var. Son 5 ilə baxıb əmək bazarının tələblərinin necə sürətlə dəyişdiyini görmək olar. Ona görə də XXI əsrdə yaşayan insanlar bacarıqlarını tez-tez dəyişməli olacaqlar".

### "İT -Akademiya" ixtisas dəyişmək baxımından yeni və kütləvi formatdır

Elmi-nəzəri müqayisə olmasa da, nazir Azərbaycanın 8 il əvvəlki reallığı ilə indiki reallıq arasındakı fərqi dəyişən keçid balları ilə nəzərə çatdırmağa çalışıb: "Yaxın keçmişimizdə riyaziyyat, fizika fakültələrinə qəbul 250 balla baş tuturdu. Həmin vaxt, 2014-2015-ci illərdə mühəndislik ixtisaslarına minimum balı heç olmasa, 300-350 bal etməyi düşünürdük ki, bundan aşağı toplayanlar həmin ixtisasları seçə bilməsinlər. Lakin indi həm IX sinfin buraxılış imtahanlarında, həm də XI sinfin buraxılış və qəbul imtahanlarında yüksək nəticə göstərən abituriyentlər dəqiq fənlərə, texniki və texnoloji ixtisaslara daha çox həvəs göstərirlər. Bu həvəsin nəticəsidir ki, texnologiya ixtisasının keçid balı tibdən yuxarıdır".

"Əmək bazarında fərqli bacarıqlara tələbat var və həmin bacarıqların daşıyıcıları daha çox gənclərdir", - deyən nazir əmək bazarinda səmərəliliyi azaldan tendensiyaya da diqqət çəkib. Onun sözlərinə görə, insanın arzulamadığı, hətta ona aidiyyatı olmayan ixtisaslara yiyələnməsi, "harasa qəbul olunmaq heç yerə qəbul olunmamaqdan yaxşıdır" məntiqinin səbəb olduğu vəziyyətdir və bunun nəticəsidir ki, əmək bazarında öz işini sevməyən insanlar həddən çoxdur: "Fərdin yiyələndiyi ixtisasın əmək bazarının tələbi ilə uyğunsuzluğu, hətta fərdin öz marağına uyğunsuzluğu müşahidə olunur. Problemin həlli baxımından insanın ikinci, üçüncü şansları olmalıdır".



Məhz bu baxımdan "İT-Akademiya" layihəsini yüksək qiymətləndirən nazir bu layihə ilə insanların əlavə şans qazandığını bildirib: "Eşitdim ki, bu kursun 45 yaşında müdavimi var. Bu, həyata yenidən başlamaq, həyatda yeni bir səhifə açmaq deməkdir. İnsanlar üçün bu, belədir. Elə iqtisadiyyat üçün də bu, dinamikadır və böyük faydası olacaq".

Nazirin fikrincə, əmək bazarının tələblərinin yaratdığı yeni reallıq ali təhsil müəssisələrinin mahiyyətini də dəyişəcək: "Artıq ənənəvi, sadəcə 17-21 yaşlı gəncləri gördüyümüz ali təhsil müəssisələri dəyişməyə məcbur olacaq və universitetlər orta yaşlı, hətta orta yaşdan yuxarı olan insanların gəlib-getdiyi yerə çevriləcək".

"İT-Akademiya"nin ixtisas dəyişmək baxımından yeni və kütləvi format olduğunu vurğulayan E.Əmrullayev "Bu, Elm və Təhsil Nazirliyi üçün də yaxşıdır. Odur ki, sürətlə bu istiqamətdə işləməliyik", - deyə qeyd edib.

O, əmək bazarının tələblərini ödəmək üçün ixtisaslı, bacarıqlı insanların sayını artıracaq planlardan da danışıb: "Orta hesabla hər il 150 min uşaq doğulur. Lakin hər il ən yaxşı halda 50-55 min adam ali təhsil almaq imkanı əldə edir. Təxminən 10 min nəfərə yaxın xaricdə təhsil almaq imkanı qazanır. Peşə məktəblərində və kolleclərdə təhsil alanları da nəzərə alsaq, ən yaxşı halda, sadəcə 80 min nəfər təhsil alaraq hansısa peşəyə, ixtisasa yiyələnir. Bu, bizim tarixi maksimumuzdur. Lakin 2026-cı ilədək bakalavr səviyyəsində qəbul planımızı 60 minə çatdırmaq istəyirik. Peşə təhsilini 25-30 minə qaldırmaq niyyətindəyik".

"İT-Akademiya" kimi layihələr də bu prosesi sürətləndirəcək. Emin Əmrullayevin sözlərinə görə, qısa zamanda bu cür layihələrlə əmək bazarına bacarıqlı insanlar qazandırmaq mümkün olacaq".

### Lazımi sayda mütəxəssis olmasa...

İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev Azərbaycanın İT sahəsində potensialını qiymətləndirərkən Avropa ölkələrinə çıxış imkanlarından danışıb: "Amma lazımi sayda mütəxəssis olmasa, yeni şirkətlər yaranmayacaq, mövcud şirkətlər isə kadr çatışmazlığı ilə üzləşəcək. Yeni qabaqcıl texnologiyaların sürətli mənimsənilməsi, onların vətəndaşların maraqlarına xidmət etməsi üçün IV Sənaye İnqilabının çağırışlarına çevik uyğunlaşmağımız zəruridir".

"Alqoritmika" şirkətinin baş direktoru Andrey Lobanov hesab edir ki, İT-yə gəlmək düzgün seçimdir. Bu seçimi edənlər üçün həyat darıxdırıcı olmayacaq, çünki onlar yaxşı qazanacaqlar: "Zarafat deyil, gələcək məhz İT-dədir. Şadam ki, Azərbaycanda bu sahənin inkişafına dövlət səviyyəsində maraq var. Məktəblərdə, universitetlərdə İT sahəsini seçənlər çoxalır və dövlət də onların təhsil alması, inkişaf etməsinə şərait yaradır".

Xatırladaq ki, İT sahəsinə xüsusi marağı olan 25-45 yaşlı şəxslər bir neçə mərhələdən keçərək "İT-Akademiya"da 5 aylıq kurs keçib. Kursların nəticəsi olaraq hər iki dalğa üzrə 279 nəfər "məzun" adını qazanıb. Tədris müddətində ən uğurlu nəticə göstərən 11 məzun sertifikatla təltif olunub.

Sonda məzunlarla işəgötürənlər arasında tanışlıq və sual-cavab sessiyası, həmçinin CV təqdimatı həyata keçirilib.

**Ruhiyyə DAŞSALAHLI**

# Geniş imkan, yüksək təhsil



## Dövlət Proqramı gənclərin xaricdə təhsil almaq arzusunu reallaşdırır

İyunun 20-də Bakıdakı Təhsil Texnologiyalar Mərkəzində "2022-2026-cı illər üzrə xaricdə təhsil üçün Dövlət Proqramı"na müraciət etmiş tələbələrin müsahibələrinin təşkili ilə bağlı mediatur keçirilib. Mediatur çərçivəsində KİV nümayəndələri tələbələrin müsahibə mərhələsini müşahidə edib.

Dövlət Proqramı İdarəetmə qrupunun rəhbəri Turan Topalova mediatur çərçivəsində KİV nümayəndələrinə prosesə bağlı məlumat verib, onları maraqlandıran sualları cavablandırıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamına əsasən "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" təsdiq edildiyini deyən Turan Topalova Proqramın məqsədindən söz açıb:

"Proqramın təsdiq edilməsində əsas məqsəd gənclərə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilalma imkanları yaratmaqla, onların Azərbaycan Respublikasının gələcək inkişafını təmin edəcək və qlobal çağırışlara cavab verəcək müasir texnologiyaları çevik mənimsəyən, praktiki bilik və bacarıqlara yiyələnən, müasir və gələcək əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli və yüksəkixtisaslı peşəkar kadrlar kimi hazırlanmasını təmin etməkdir. Dövlət Proqramına müraicət edən namizədlərin seçimi iki mərhələdən ibarətdir. İlk mərhələdə namizəd tələb olunan sənədlərin skan edilmiş surətini elektron ərizə sistemində "Şəxsi kabinet" yaradaraq əlavə edib, elektron ərizəni təsdiq etməlidir. Müvafiq Seçim Qaydalarının tələblərinə uyğun olan namizədlərin müraciətləri dəyərləndirilir və müsbət qiymətləndirilən namizədlər aidiyyəti üzrə növbəti mərhələyə buraxılır. Müsahibə mərhələsi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikası Dövlət Neft Fondunun nümayəndələri və müvafiq sahə üzrə ekspertin iştirakı ilə həyata keçirilir. Müsahibənin nəticəsinə uyğun olaraq, namizədlər haqqında yekun qərar verilir".

Turan Topalova Dövlət Proqramı çərçivəsində xaricdə təhsilə dair sənəd qəbuluna 30 mart 2023-cü il, müsahibə mərhələsinə isə 15 may 2023-cü il tarixlərindən etibarən start verildiyini və son müraciət tarixinin 14 iyul 2023-cü il olduğunu deyib: "Proqrama prioritet ixtisas sahələri ilə yanaşı, cari ildə "Times Higher Education", "QS World University Rankings" və "Academic Ranking of World Universities (Shanghai)" reytinq sistemlərində yalnız "universitetlər üzrə top 10"da yer almış ali təhsil müəssisələri tərəfindən təqdim olunan, müvafiq siyahıda yer almayan istənilən ixtisas sahəsi üzrə bakalavriat və magistratura proqramlarına qəbul almış şəxslər də təqaüd üçün müraciət edə bilər".

Mediatur çərçivəsində Dövlət Proqramına müraciət edən və müsahibə mərhələsinə dəvət olunan tələbələrlə görüşüb, söhbətləşdik.

### "Müsahibə mərhələsindən də uğurla keçib xaricdə təhsilimi davam etdirməyi planlaşdırıram"

Natiq Babayev Bakı Ali Neft Məktəbində "Kimya mühəndisliyi" ixtisası üzrə bakalavr təhsilini başa vurduqdan sonra magistr təhsilini davam etdirmək üçün Dövlət Proqramına müraciət edib. O, bir çox nüfuzlu universitetlərdən dəvət alsa da, Almaniyanın Ulm Univeristetində təhsil almağa qərar verdiyini deyib: "Kimya sənayesi dünyada ən vacib sahələrdən biridir. Mən də bir gənc mütəxəssis kimi bu sahədə bilik və bacarıqlarımı artırmağı, bir ixtisaslı kimyaçı kimi ölkəmə xidmət etməyi qarşıma məqsəd qoymuşam. Müsahibəmin uğurlu keçdiyini düşünürəm. Müsahibə sualları əsasən ixtisasıma uyğun olaraq və dil biliklərimi müəyyən etmək üçün verilirdi. Müsahibə mərhələsindən də uğurla keçib xaricdə təhsilimi davam etdirməyi planlaşdırıram. Biz gənclərə bu şəraiti yaratdığı üçün ölkə Prezidenti cənab İlham Əliyevə minnətdarlığımı bildirirəm".

### "Arzum həmişə xaricdə təhsil almaq, ölkəmə faydalı bir mütəxəssis kimi xidmət etməkdir"

"İT texnologiyaları" ixtisası üzrə Türkiyənin Sabancı Universitetinə qəbul olunan və Dövlət Proqramına müraciət edən Nazim Məmmədov müsahibə ilə bağlı fikirlərini bizimlə bölüşüb: "Biz gənclər üçün çox yaxşı şərait yaradılıb. Bunun üçün ölkə Prezidentinə xüsusi minnətdarlığımı bildirirəm. Arzum xaricdə təhsil almaq, ölkəmə faydalı bir mütəxəssis kimi xidmət etməkdir. Düşünürəm ki, İT sahəsi bu gün olduğu kimi gələcəyin də ən priroritet sahələrindən olacaq".

**Niyazi RƏHİMOV**

# Gənc müəllimlər III forumunu keçirdi

## AGMA-da ölkənin bütün regionlarından 7 mindən çox üzv təmsil olunur

Gənc müəllimlərin davamlı öyrənməyi üçün imkanlar yaradılıb, pedaqoji ixtisaslar üzrə təhsil alan tələbələrin müəllimliyə hazırlanmasına təcrübə dövründən başlanılıb, gənc müəllim imici formalaşdırılıb. Bu müddətdə əsas istiqamətlərdən biri də gənc müəllimlərin ehtiyaclarının müəyyənləşdirilməsi olub: "Bu məqsədlə 39 regionda forum təşkil edilib. Həmin forumlarda müəyyən edilən ehtiyaclara uyğun olaraq platformaya yeni kurslar əlavə olunub. Hazırda platformamızda 74 kurs var. Müəllimlər fasiləsiz və ödənişsiz həmin kurslardan istifadə edə bilərlər".

Təşkilatın növbəti - 2022-2025-ci illər üçün müəyyənləşdirdiyi hədəflər siyahısında davamlı öyrənmə yenə var. R.Əsədzadə deyir ki, müəllimlər hər zaman öyrənməyə təşviq edilməlidir.

AGMA beynəlxalq platformalarda təmsil olunmaqda da maraqlıdır. Beynəlxalq təcrübənin inteqrasiyası məqsədi ilə bir neçə ölkə ilə əməkdaşlıqdan danışan R.Əsədzadə ən böyük nəticəni Türkiyə ilə əldə etdiklərini vurğulayıb: "Hazırda Türkiyədə 25-dən yuxarı təşkilatla memorandumumuz var. Növbəti iki il ərzində hədəfimiz Avropa, Amerika və digər ölkələrin təcrübələrinin inteqrasiyasını təmin etməkdir".

⇦ Əvvəli səh.1

Təşkilat artıq universitetlərdə çalışan gənc müəllimləri də özündə birləşdirməkdə iddialıdır: "2 il ərzində yalnız ümumi təhsil müəssisələrində fəaliyyət göstərən müəllimlərimizin peşəkarlığını artırmağa yönələn addımlar atdıq. Bundan sonrakı 2 il ərzində ali məktəblərdə çalışan gənc müəllimlərimizlə ümumtəhsil məktəblərinin müəllimləri arasında əməkdaşlığın qurulması platformasını inkişaf etdirmək əsas hədəflərimizdəndir".

Məktəbəqədər təhsil müəssisələri üçün pedaqoji kadr hazırlığının artırılması da var hədəfdə: "Elm və Təhsil Nazirliyinin dəstəyi ilə bu il həyata keçirdiyimiz layihə 200-ə yaxın tərbiyəçi müəllimə pedaqoji bacarıqlarını inkişaf etdirmək imkanı yaratdı. Onlayn platformada yaş məhdudiyyəti qoymadan pulsuz 10 kurs keçdik".

R.Əsədzadə ötən illər ərzində verdiyi dəstəyə görə Elm və Təhsil Nazirliyinə təşəkkür edib.

### "Müəllimə dəstək tədbirləri inkişaf etdirilməlidir"

III Forum münasibətilə gənc müəllimləri təbrik edən elm və təhsil naziri Emin Əmrullayev son illərdə müəllimlik peşəsinə marağın artdığını vurğulayıb. "Bir gənc niyə müəllim olsun?" - vacib sualdır və bu sual ətrafında son 10 ildə bir çox işlər aparılıb", - deyən nazir 2013-cü ildən başlayaraq keçilən yola nəzər salaraq görülən işləri bir neçə fazaya bölüb: "İlk fazada Azərbaycan Dövlət Pedaqoji Universitetinə 500 balla qəbul olunan 1, ya da 2 nəfər vardı. Müəllim olmaq istəyən gənclərin sayı 18 min nəfər idi və onlar da keçirdiyimiz imtahanlarda keçid balını toplaya bilmir, yerlər boş qalırdı. Başqa sözlə, yetərli sayda namizədimiz yox idi ki, onları işə qəbul edək. Həmin vaxt qarşımıza məqsəd qoymuşduq ki, zəif təhsil sistemini dəyişək, daha istedadlı insanlar müəllim olmaq istəsinlər, işə qəbul şəffaf aparılsın, müəllimlərin sosial rifah halı yaxşılaşsın. Bu hədəflərə nail olundu".

"Hazırda ikinci fazadayıq, daha çox kafidən yaxşıya gedən yolda", - deyən nazir təhsilverənlərin sertifikatlaşdırılmasına diqqət çəkib, bu prosesin peşəkar bacarıqların ölçülməsi ilə yanaşı, həm də əməkhaqqı islahatı olduğunu bildirib: "İslahat iki məsələni özündə birləşdirir. Sertifikasiya prosesində müəyyən minimal nəticə göstərə bilməyən və peşəkarlıq səviyyəsi aşağı olan müəllimlərə əlavə şans verilir, bu şansdan istifadə edə bilməsə, işdən azad edilirlər. İlk dəfə olaraq tətbiq edilən diferensiallaşmış əməkhaqqı sistemi sayəsində peşəkar müəllimlər fərqləndirilir".

2026-cı ilə qədər islahatın təxminən 125 min insanı əhatə edəcəyini deyən nazir başqa bir vacib məqama da diqqət çəkib: "Son illər ərzində MİQ imtahanında iştirak edən şəxslərin hər biri sertifikasiyadan keçib. Bu, əslində MİQ bizə lazım idimi?" - sualının cavabıdır. Sertifikasiyadan keçən həmin müəllimlərin 78 faizi 51-dən çox bal toplayaraq əməkhaqqında 35 faiz artıma nail olublar. Bununla da bu gün xidmətdə olan müəllimlərdən əsaslı şəkildə fərq ortaya qoyublar. Niyyətim təcrübəli müəllimlərin bilik və bacarıqlarının az olduğunu qabartmaq yox, gənc müəllimlərin əvvəlki nəsil müəllimlərdən fərqini göstərməkdir. Belə ki, orta statistik göstəricilərə görə, təcrübəsi 5 il olan müəllimlərin orta balı təcrübəsi 25 il və daha çox olan müəllimlərdən 3.5 dəfə artıqdır. Bu, ölkəmiz üçün çox yaxşıdır. Arxadan gələn müəllimlərimiz özlərindən daha təcrübəli olan müəllimlərimizi əvəz edə biləcəklər".

Nazir başqa bir müşahidəni də diqqətə çatdırıb: "Əvvəlki illərdə boş yerlər çox qalırdı və biz həmin yerləri tutacaq keçid balını toplayan kifayət qədər namizəd tapa bilmirdik. Son illərin reallığı ondan ibarətdir ki, keçid balını toplayan kifayət qədər namizəd var və biz onları yerləşdirmək üçün vakansiya tapa bilmirik. İnanıram ki, sertifikasiya prosesində gənc müəllimlər üçün şərait yaranacaq və proses həm keyfiyyət, həm də kəmiyyət dəyişikliyi prosesi olaraq davam edəcək".




Hədəfdə isə metodik xidmətin qurulması var: "Elm və Təhsil Nazirliyi olaraq müşahidə edirik ki, müəllimə dəstək tədbirləri inkişaf etdirilməlidir. Bu mənada Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının da fəaliyyəti qiymətləndirilməlidir. Ancaq,yəqin ki, növbəti fazada sertifikasiya imtahanlarında ən yüksək bal toplayan müəllimlərin arasından mentor müəllim vəzifəsi təsis olunacaq. Bu, ödənişli vəzifə olacaq və həmin müəllimlər vasitəsilə dəstəyə ehtiyacı olan müəllimlərə uzağa getmədən, elə işlədikləri məktəb, region daxilində metodik dəstək göstəriləcək. Bu xidmət qurularsa, məktəbdəki müəllimin fəaliyyəti bir az da təkmilləşər. Təbii ki, metodist müəllim yetişdirmək elə də asan məsələ deyil. İnanıram ki, sertifikasiya prosesi buna da kömək edəcək".



Məktəb rəhbərlərinin təyinatı məsələsində də xeyli iş görüldüyünü vurğulayan nazir prosesin xeyli şəffaflaşdığını deyib: "Ən kiçik məktəbdən tutmuş ən böyük məktəbə qədər direktorlar müsabiqə əsasında təyin edilir. Sertifikasiya prosesi gələcəkdə məktəb rəhbəri seçimində də əsas göstərici sayılacaq. Öz fənnini bilməyən müəllimin başqa müəllimlərə rəhbərlik etməsi düzgün deyil".

Sertifikatlaşdırmadan müəllimlərin dövlət mükafatlarının verilməsində də müəyyən meyarlar nəzərə alınmaqla istifadə olunacaq. Nazir mərhələli şəkildə problemlərin həll ediləcəyini bildirib.

Daha sonra gənclər və idman naziri Fərid Qayıbov gənclərimizin könüllülük fəaliyyəti, həyata keçirilən layihələr, gənc nəslin müasir dünya gəncliyinə inteqrasiyası, gənclərlə iş sahəsində birgə əməkdaşlıq mövzuları ətrafında çıxış edib. "Uşaqlarımızın tərbiyəsində, həyata baxışında müəllimlərin çox böyük rolu var", - deyən nazir artıq daha çox gəncin müəllim olmaq istədiyini vurğulayıb.

### "Əsas sevgiylə müəllimlik etməkdir"

Gənc müəllim Suqra Cəfərova forum iştirakçıları ilə özünün Sumqayıtdan ucqar kənd məktəbinədək uzanan uğur hekayəsini çox böyük həyəcanla paylaşıb. Dediyinə görə, tələbəlik illərində və sonrakı dövrdə könüllü fəaliyyətləri ilə bir çox sahədə təcrübə, o cümlədən müəllimlik təcrübəsi toplayıb ki, indi qazandığı bu təcrübədən Qusarın İmanqulu kəndində istifadə edir.

Sumqayıt şəhər Humanitar və Texniki təmayüllü "İstedad" liseyində təhsil alıb. 2010-cu ildə ADPU-da "Tarix" ixtisası üzrə bakalavr təhsilini bitirib. Əvvəlcə, kimsəsiz uşaqlara könüllü dərs deyib. Qarabağ Tədqiqatlar Mərkəzində, ASAN Sumqayıtda könüllülük fəaliyyətləri olub. 2012-2013-cü illərdə ADPU-da aldığı magistratura təhsilini yarımçıq qoyaraq təhsilinə xaricdə davam edib: "2012-ci ilin mart ayında Başbakanlığın təhsil proqramlarından olan Türkiyə Burslarına müraciət etmişdim. Elektron ünvanıma qazandığımı bildirən ismarıc gələndə ADPU-da sonuncu - 7-ci imtahanımı verib evə qayıtmışdım".

Çətin də olsa, qərarı təhsilini xaricdə davam etdirmək olub. Türkiyənin Anadolu Universitetinin sosial çalışmalar fakültəsində bakalavr və Sakarya Universitetinin tarix fakültəsində magistr təhsili alan Suqra Cəfərova həmin müddətdə seminar və konfranslara qatılaraq öz üzərinə fəal ictimai vəzifələr götürüb. Hətta Almaniyanın Tübingen şəhərindəki Eberhard və Karl Universitetində tədqiqatçı tələbə kimi "Azərbaycan tarixində qadın" mövzusunu araşdırıb. Geri döndükdən sonra müəllimlik təcrübəsi keçib. Harda keçsə yaxşıdır? Polşanın Torun şəhərindəki Nikolay Kopernik Universitetində.

Bakıya qayıtdıqdan sonra özəl türk liseylərinin birində işə başlayıb. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında tarix müəllimi olaraq fəaliyyət göstərib. 2020-ci planedək belə davam edib və müharibə gənc müəllim üçün bir çox şeyləri dəyişdirib. Noyabr ayında baba yurdu Kəlbəcərin geri qaytarılması onun da hisslərini coşdurub: "Həmin günlərdə sosial şəbəkələrdə çoxsaylı paylaşımlar arasında soyuq səngərlərdə vətənin keşiyini çəkən qəhrəman əsgərlərin fotoları diqqətimi cəlb edirdi. Mən vətənimə necə xidmət edəcəyəm - deyə öz-özümə düşünürdüm. Axırda qərar verdim. Hesab edirəm ki, çox doğru qərar verərək Qusar rayonunun İmanqulu kənd məktəbini seçdim".

Məktəbdə nədən başlayacağı, kimləri yetişdirəcəyi ilə bağlı suallar beynini məktəbin qapısından içəri girdiyi andan məşğul edib: "Dəyişikliyə siniflərdəki uşaqlarla, məhz siniflərdən başlamalı olduğumu çox keçmədən anladım. Girdiyim hər sinfin yazı lövhəsinə "Mən dəyişikliyə inanıram" yazdım".

Qara lövhə üzərinə yazılan ağ hərflər, sadəcə onun şagirdlərinin yox, bir məktəbin, bir kəndin taleyini dəyişdirib. "Kitab karvanı", "Ailə kitab klubu" kimi klublar yaradan gənc müəllim nəinki kəndi, ictimaiyyəti öz dəyişikliklərinə inandırıb, ortaq edib: "Kənd həyatı maraqlı və rəngarəng olmasına baxmayaraq, şagirdlərin inkişafı üçün imkanlar məhduddur. Xüsusilə də elm, texnologiya və digər müasir bilik və bacarıqlara yiyələnmək üçün resurslar kifayət etmir. Kənddə fəaliyyətə başladığım gündən etibarən, yaxın dostlarımın dəstəyi ilə müxtəlif sosial layihələr həyata keçirirəm. Bu təcrübələrdən kənd uşaqlarının əslində özlərini yetişdirməyə meyilli olduqlarını müşahidə etmişəm. Ona görə də istəyirəm ki, onların özlərini kəşf etmələri üçün fürsətlər yaradım və özlərini müxtəlif sahələrdə sınamaları üçün imkanları onlar üçün əlçatan edim. Bu yolda cəmiyyətimizin inkişafını düşünən hər bir fərdin və qurumun dəstəyinə ehtiyacım vardı. Mən də bütün cəmiyyətimizə səsləndim, hər kəsi kənd uşaqlarına özlərini kəşf etmələri üçün fəaliyyət hədiyyə etməyə çağırdım. Bu çağırışımın nəticəsidir ki, artıq ikinci ildir qlobal kənd dil kampını həyata keçiririk".

S.Cəfərova müqayisə edərək "Kənd, yoxsa şəhər müəllimi olmağın elə fərqi yoxdur", - deyir: "Əsas ürəklər, sevgiylə müəllimlik etməkdir. Çünki bu, könül işidir".

**Ruhiyyə DAŞSALAHLI**







## 2023 – "Heydər Əliyev İli"

# Ümummilli Lider və Azərbaycan TƏHSİLİ



Azərbaycan xalqının müasir milli tarixində inkişaf və tərəqqi ilə bağlı elə bir hadisə, toplumun taleyini və qədərini pozitiv məcraya dəyişmiş elə bir mühüm missiya yoxdur ki, onun üzərində türk və müsəlman dünyasının böyük oğlu, Ümummilli Lider Heydər Əliyevin imzası və əməyi olmasın. Heydər Əliyev yaxşı bilirdi ki, şanlı keçmişi, zəngin dövlətçilik ənənələri və tükənməz insan resursları olan bir xalqın iqtisadi, siyasi və mədəni həyatını müasir dövrün tələblərinə uyğun nizamlamaq üçün, ilk əvvəl onun intellektual elitasının formalaşdırılması başlıca şərtdir. Məhz bu səbəbdən Ümummilli Liderin Azərbaycana həm birinci, həm də ikinci rəhbərliyi dövründə intellektual resursların yeni inkişaf mərhələsinə çıxarılması, elmi-texniki tərəqqidə insan kapitalının rolunun durmadan artırılması prioritet məsələ idi. Heydər Əliyevin 1969-cu il iyul ayının 14-də Azərbaycan Respublikasına rəhbərliyə başladığı ilk gunlərdən məmləkətin gələcəyi və tərəqqisi naminə atdığı birinci addım da ölkədə təhsil sistemininin keyfiyyət əmsallarının yüksək səviyyəyə qaldırılması işi ilə bağlı olmuşdu. Respublikada kadr siyasətini uğurla həyata keçirən Ümummilli Lider yaxşı başa düşürdü ki, ölkənin işıqlı gələcəyini etibarlı şəkildə təmin etmək üçün milli dəyərlərə və tarixdən gələn əxlaqi-mədəni keyfiyyətlərə sahib olan, pozitiv elmin bütün sirlərinə israrla yiyələnməyə çalışan, özündə milli mentalitetin ənənəvi komponentlərini fəxarət hissi ilə tərənnüm etməyi bacaran, Şərqin və Qərbin yüksək təşəkküllü elmi-mədəni nailiyyətlərini davamlı olaraq mənimsəyən, daim yeniliyə, yaradıcılğa və reformasiyaya can atan, doğma Azərbaycanımızı bütün varlığı ilə sevən intellektualların yetişdirilməsi təxirəsalınmaz tarixi vəzifə olmalıdır.

XX əsrin 60-cı illərinin sonu, 80-ci illərinin əvvəllərində Azərbaycanda reallaşdırılan milli-mədəni inqilabın sürətli templərlə cərəyan edən dinamikasına qısaca nəzər salmaq kifayət edir ki, Azərbaycan milli ideyasının gerçəkləşməsi naminə Ümummilli Lider Heydər Əliyevin möhtəşəm fəaliyyətinin və onun hər hansı meyara və ölçüyə sığmayan misilsiz xidmətlərinin əsrarəngiz portretini yarada biləsən.

Heydər Əliyev XX əsrin 20-ci, 30-cu illərində bolşevik irticasının və sovet repressiv maşınının qurbanı olmuş milli genofondu bərpa etmək istiqamətində həyati vəzifəni şərəflə yerinə yetirmək kimi möhtəşəm bir tarixi məsuliyyəti öz üzərinə götürmüşdü. Ümummilli Liderin elm, təhsil və mədəniyyət sahələrində həyata keçirdiyi möhtəşəm tədbirlərin başlıca nəticəsi isə müasir Azərbaycan insanının timsalında yeni intellektual etalonun formalaşması oldu. Ulu Öndərin Azərbaycana birinci rəhbərliyi dövründə ölkəmizin intellektual genofondu elə bir ali məqama yetişdi ki, cəmiyyət həyatının bütün sahələrində - təhsildə, elmdə, ədəbiyyatda, təsviri və tətbiqi incəsənətdə, musiqidə, kinematoqrafiyada və digər sahələrdə dünya miqyaslı çoxlu sayda ustadlar yetişdi. Heydər Əliyev bununla da uzun illər fiziki və intellektual terrora məruz qalmış Azərbaycan xalqının əsli-nəcabətini, tarixin yaradıcı ruhundan güc almış ənənəvi simasını, onun qədimliklə üzvi əlaqəsi olan tarixi yaddaşını, milli əlamətlərini və mental xüsusiyyətlərini özünə qaytardı.

Ulu Öndər Azərbaycanda dünyanın müasir inkişaf standartları ilə rəqabət aparmağa qadir olan adekvat mədəni və intellektual şəraitin formalaşdırılmasına nail oldu. Heydər Əliyev qısa müddət ərzində, planetar miqyasda bir siyasət ulduzu kimi parladı, müdrikliyin və uzaqgörənliyin nümunəsi kimi özünü təsdiq etdi. Ulu Öndər Heydər Əliyevin daim diqqət mərkəzində saxladığı məsələlərdən biri təhsil sistemi ilə bağlı idi. Xalqın intellektual intibahı kimi bir tarixi vəzifəni üzərinə götürən Ümummilli Lider yaxşı başa düşürdü ki, milli ruhun, milli insan kapitalının öz sərhədlərini aşaraq ümumbəşəri sərvətə çevrilməsi, bununla da ümumdünya nailiyyəti olması üçün təhsilin bütün mərhələlərinin yüksək məqama çatması, mütərəqqi, yaradıcı və tənqidi düşünən intellektuallar ordusunun yaradılması, elm və sənət korifeylərinin yetişdirilməsi, xalqın düşünən beyni, toplumun sönməz zəkası və intellektual siması sayılan metrlərin ərsəyə gəlməsi, cəmiyyətin idraki öndərləri olan, dühasını gələcək nəsillərə ötürməyi müqəddəs vəzifə hesab edən ziayalıların cəmiyyətin aparıcı qüvvəsi olması şərtdir.

Ümummilli Lider xalqın mədəni və intellektual intibahını elmin və təhsilin yeni inkişaf səviyyəsinə qaldırılmasında görürdü. Ümummilli Lider Heydər Əliyevin hələ XX əsrin 60-cı illərinin sonu, 80-ci illərinin əvvəlində Azərbaycanda formalaşdırdığı təhsil sisteminin çox yüksək inkişaf templəri milli insan kapitalının necə yüksək potensiala malik olmasının sübutu idi. O dövrdə Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin demək olar ki, hamısında hələ orta məktəblərdə "vunderkind"(alm. Wunderkind - "möcüzə uşaq", - ölkənin təhsil sistemi tərəfindən rəsmi səviyyədə əqli-intellektual imkanlarına, idraki bacarıqlarına görə yaşıdlarından fövqəladə şəkildə fərqlənən uşaq) statusu almış və orta təhsil proqramını nəzərdə tutulan müddətdən xeyli tez mənimsəmiş uşaqlar və gənclər təhsil alırdı. Hətta həmin dövrdə ölkənin orta və ali təhsil sisteminə "eksternat" (lat. externus - kənar, - ümumi orta və ali təhsil proqramının şagird, yaxud tələbə tərəfindən müstəqil şəkildə mənimsənilməsini nəzərdə tutan və dövlət akkreditasiyası ilə təsdiqlənən xüsusi attestasiya forması) adlanan vacib element də daxil edilmişdi. Sözügedən dövrdə, ölkədə hətta savant sindromu (fran. Savant - bilikli, alim, - fiziki və fizioloji, o cümlədən autistik çatışmazlıqları olan şəxsin bir və ya bir neçə sahədə dahilik əlamətlərinin ifadəsi ilə müşayiət olunan unikal hadisədir) hallarına da rast gəlinirdi. Bu isə ölkədə hər kəsin yüksək təhsil alması üçün adekvat şəraitin olmasından xəbər verir. Ümummilli Lider Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyinin sonunda - XX əsrin 80-ci illərinin əvvəllərində respublikada hətta orta statistik azərbaycanlının intellekt koeffisienti (ing. IQ - intelligencequotient - insanın əqli inkişafının onunla eyni yaşda olan orta statistik insanın intellektinin səviyyəsi ilə müqayisədə əmsalı) kifayət qədər yüksək həddə çatmışdı. Hələ 1912-ci ildə alman alimi Uilyam Lüis Ştern (1871-1938) tərəfindən elmi dövriyyəyə daxil edilmiş "intellekt koeffisenti" anlayışının müddəalarına və onun ölçülməsi meyarlarına nəzər salsaq 13 il (1969-1982) ərzində Azərbaycan cəmiyyətinin intellektual potensialının necə böyük bir sıçrayış etməsinin şahidi olarıq.

Azərbaycan Respublikası 1991-ci ildə istiqlaliyyət qazandıqdan və siyasi müstəqillik əldə etdikdən sonra, ölkədə tarixi ənənələrin bərpa edilməsi və demokratizm prinsiplərinə əsaslanan dövlət quruculuğunun həyata keçirilməsi kontekstində mütərəqqi düşünən gənc nəslin müasir dövrün tələblərinə uyğun təhsil alması və tərbiyə edilməsi işini Azərbaycan Respublikasının təhsil sistemi üzərinə götürdü. Bu mühüm və şərəfli vəzifənin beynəlxalq standartlara uyğun şəkildə həyata keçirilməsi nəticəsində milli təhsil sistemində yeni-yeni reformasiyalara imza atıldı.

1993-cü ildə Azərbaycan Respublikasına ikinci dəfə rəhbərlik etməyə başlayan Ulu Öndər Heydər Əliyev ölkədə siyasi sabitliyi bərqərar etdikdən sonra Azərbaycan təhsilinin yenidən qurulması və inkişafı ilə bağlı mühüm tədbirlərin icrasına xüsusi önəm verdi. Dövlət başçısının sərəncamı ilə ümumtəhsil müəssisələrində ümumi orta təhsil 11 illik ümumi icbari təhsillə əvəz olundu. 1998-ci ilin mart ayında Ümummilli Lider Heydər Əliyevin imzaladığı Fərmana əsasən müstəqil Azərbaycan Respublikasında milli təhsil konsepsiyasının yaradılması və onun həyata keçirilməsi strategiyasının hazırlanması üzrə Dövlət Komissiyası yaradıldı. Təhsilin yenidən qurulması və inkişafı ilə bağlı Dövlət Proqramının üç mərhələdə həyata keçirilməsi nəzərdə tutulurdu.1999-cu ildə sözügedən proqramın I mərhələsinin icrasına başlandı. Ulu Öndərin milli təhsilin yenidən qurulması və inkişafı ilə bağlı diqqət mərkəzində saxladığı ən mühüm məqamlardan biri təhsilin məzmununun müstəqil Azərbaycan dövlətçiliyinin ideya-siyasi prinsiplərinə uyğun formalaşdırılması idi. Bu baxımdan yeni dərsliklərin hazırlanması prioritet məsələ kimi ön plana çəkilirdi. Heydər Əliyev milli təhsil sistemində Azərbaycan dili, Azərbaycan ədəbiyyatı və Azərbaycan tarixi dərsliklərinin məzmununa xüsusi diqqət ayırırdı. Ulu Öndərin digər bir sərəncamı ilə orta və ümumtəhsil məktəblərində dərsilklərdən pulsuz istifadə qaydaları tətbiq olundu.

Milli təhsilimizin keyfiyyət meyarlarının dünya standartlarına çatdırılması kimi mühüm tarixi missiyanı 2003-cü ildən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev uğurla icra edir. 2005-2007 və 2008-2013-cü illərdə Azərbaycan təhsilinin inkişafı ilə bağlı qəbul edilmiş iki Dövlət proqramının həyata keçirilməsi nəticəsində milli təhsilin müasir təməllər üzərində qurulması işinin dinamikasında əhəmiyyətli irəliləyişlər baş vermişdir. Bu sahədə xüsusi diqqət mərkəzində olan məsələ isə dövrün elmi-texniki ruhuna və tələblərinə uyğun tədris texnologiyalarının təhsil sisteminə tətbiq edilməsidir. Məhz İnformasiya cəmiyyətinin əsas komponenti sayılan informasiya-kommunikasiya texnologiyalarının (İKT) fəal şəkildə tədris prosesinə cəlb edilməsi keyfiyyətli təhsilə möhkəm və davamlı zəmanət verən əsas amil sayılır. Durmadan qloballaşan müasir dünyanın inkişaf impulsları ilə ayaqlaşmaq üçün gənc nəsli müasir ruhda tərbiyə etmək və onu nanotexnologiyalar üzərində bərqərar olan informasiya cəmiyyətinin aktiv iştirakçısına çevirmək günün tələbi kimi ortaya çıxır.

Azərbaycan dövlətinin və hökumətinin həyata keçirdiyi Dövlət Proqramları sayəsində hazırda ölkəmizin orta və ümumtəhsil müəssisələrində hər 9 şagirdə 1 kompüter düşür və bu, kifayət qədər yüksək göstərici hesab olunur. Respublikamızda fəaliyyət göstərən orta və ümumtəhsil məktəblərinin Internet şəbəkəsinə qoşulmasında da mühüm işlər görülmüş və müvafiq nəticələr əldə olunmuşdur. Hazırda ölkəmizin 2500-dən çox orta və ümumtəhsil müəssisəsində genişzolaqlı və kifayət qədər sürətli internet xətləri fəaliyyət göstərir. Qeyd etmək lazımdır ki, 2004-cü ildən başlayaraq, COVID-19 pandemiyasına qədər ölkəmizdə İnternet şəbəkəsinə qoşulan ümumtəhsil məktəblərinin sayı 1,5%-dən 52%-ə yüksəlmişdir. COVID-19 pandemiyası dövründə yaranmış ekstremal situasiya məktəblərin ümumdünya İnternet şəbəkəsinə qoşulması işini daha da sürətləndirdi. O zaman virtual üsulların tətbiqi ilə distant təhsilə keçilməsi cəmiyyətdə sosial dəstək qazandı və bu işin uğurlu icrası üçün ilkin şərtlər formalaşmağa başladı. Ümumtəhsil məktəblərində COVID-19 pandemiyası ilə bağlı yeni distant təhsilə keçidin ilk günlərindən aparıcı elektron platformaların (Microsoft Teams və Zoom) istifadəsinə başlandı. Beləliklə, pandemiyadan doğan ekstremal situasiya təhsil müəssisələrinin texniki-intellektual resurslarını səfərbər etdi və internet resurslardan istifadənin səmərəlilik dərəcəsini aşkara çıxardı.

2007-ci ildə Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində milli kurikulum (ing. curriculum- hər hansı təcrübənin, yaxud bacarığın inkişafı üzrə və spesifik üsullarla həyata keçirilən proqram) kursunun elan edilməsi isə respublikamızın təhsil sistemində əsl inqilaba çevrildi. Təhsil paradiqması kimi xarakterizə olunan kurikulumun əsas mahiyyəti ondan ibarətdir ki, o cari tədris prosesinə layihələndirmə sistemini və fəaliyyətin metodiki cəhətdən reqlamentləşdirilməsini daxil edir. Lakin Azərbaycanda kurikulumun spesifik xüsusiyyətləri var. Belə ki, milli təhsil sistemində kurikulum tədris proqramı kimi deyil, təhsil strategiyası kimi qəbul olunur.

Kurikulum tədris prosesində yeni pedaqoji texnolgiyaların tətbiqini nəzərdə tutur. Bu texnologiyalar içərisində interaktiv təlimə daha geniş yer ayrılır. Hazırda respublikamızın orta və ümumtəhsil müəssisələrində müxtəlif interaktiv təlim üsullarından istifadə olunur. Təhsilin keyfiyyətinin durmadan artırılmasında müstəsna rolu və əhəmiyyəti olan interaktiv təlim təhsil alanların dünyagörüşünün genişləndirilməsi ilə yanaşı həm də onların sərbəst fəaliyyət göstərməsi, analitik və tənqidi düşünməsi, ənənəvi təhsilin ciddi subordinativ təsiri nəticəsində ortaya çıxan stereotiplərdən azad olması üçün münbit şərait yaradır.

Ümummilli Lider Heydər Əliyevin böyük diqqət və qayğısı sayəsində ali kürsüyə çıxarılmış və yüksək keyfiyyət məqamına çatmış Azərbaycan təhsilinin əldə etdiyi nailiyyətlərdən biri də onun humanist prinsiplər üzərində qurulmasıdır. Tədris prosesinin iştirakçıları arasında qarşılıqlı hörmətə, yardıma və anlaşmaya əsaslanan təhsilin humanistləşdirilməsi işi milli təhsildə əldə olunan mütərəqqi nəticələrdən biridir. Təhsilin humanistləşdirilməsinin ərsəyə gətirdiyi ən mühüm nəticə isə sosial təcrübənin metodiki və məqsədyönlü şəkildə şəxsi təcrübəyə çevrilməsidir. Azərbaycan təhsilinin humanistləşdirilməsi bu gün ümumtəhsil və ali təhsil müəssisələrində bərqərar edilmiş inklüziv (ing. inclusion - müştərək, daxil etmək) təhsili də nəzərdə tutur. İnklüziv təhsil orta və ali təhsil almaq hüququ və arzusu olan hər kəsə fiziki, sosial, emosional, mental, nitq, intellektual və s.əlamət və xüsusiyyətlərindən asılı olmayaraq, ümumtəhsil və ali təhsil müəssisələrində oxumaq imkanı verir.

Bu gün milli təhsildə əldə edilən nailiyyətlərdən biri də məktəbəqədər təhsilin inkişaf etdirilməsi ilə əlaqədardır. Hazırda ölkəmizdə fəaliyyət göstərən 1638 məktəbəqədər təhsil müəssisəsində 120 mindən artıq azyaşlı uşaq təhsil alır. Çoxlu sayda məktəbəqədər özəl təhsil müəssisələri də fəaliyyət göstərir.

Ölkəmizdə aparıcı pedaqoji kadrların və kollektivlərin fəaliyyətini stimullaşdırmaq məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2008-ci il sentyabr ayının 4-də "Ən yaxşı orta məktəb və ən yaxşı müəllim mükafatı"nın təsis edilməsi haqqında müvafiq sərəncam imzaladı. Sərəncama əsasən hər il respublikamızda "Ən yaxşı məktəb" və "Ən yaxşı müəllim" müsabiqələri keçirilirdi. Bu isə müəllimlərin statusunun və nüfuzunun daha da artırılmasında mühüm rol oynadı.

2004-cü ildən başlayaraq, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu ümumtəhsil məktəblərinin inşası və rekonstruksiyası işinə möhtəşəm töhfələr verir. Bu günə qədər respublikamızda Heydər Əliyev Fondunun birbaşa maliyyə dəstəyi ilə 500 yüzdən çox məktəb binası inşa olunmuş və ya rekonstruksiya edilmişdir. Hazırda ölkəmizdə 4469 ümumtəhsil (onlardan 23-ü qeyri-dövlət məktəbidir) məktəbi fəaliyyət göstərir. Son illərdə onların 70%-i təmir edilmiş və yaxud yenidən inşa olunmuşdur. COVID-19 pandemiyasına qədər Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən 12 ümumtəhsil, 2 internat, 3 orta-ixtisas təhsil müəssisəsi inşa edilmiş və istifadəyə verilmişdir. Məktəblərin maddi-texniki bazasının yaxşılaşdırılması tədbirləri çərçivəsində 60 məktəbdə müasir laboratoriya kabinetləri yaradılmışdır.

Hazırda respublikada orta ixtisas təhsili müəssisələrinin inkişafına da xüsusi diqqət ayrılır. Bu gün ölkəmizdə, biri qeyri-hökumət olmaqla 61 orta ixtisas təhsili müəssisəsi fəaliyyət göstərir. Nazirlər Kabinetinin 2016-cı il 3 fevral trixli sərəncamı ilə 14 kollec birləşdirilmiş və 7 yeni kollec (onlardan 3-ü regional statusa malikdir) yaradılmış, onlardan 3-ü isə müvafiq təmayüllü ali təhsil müəssisələrinin sərəncamına verilmişdır.

Azərbaycan Respublikasının təhsil sistemində əldə olunmuş yüksək nailiyyətlərdən biri də 2005-ci il mayın 19-da Bergen (Norveç) şəhərində keçirilən Beynəlxalq konfransda Azərbaycan Respublikasının Boloniya Təhsil Prosesinə qoşulması haqda müvafiq sənədin imzalanmasıdır. Bu sənədə əsasən ölkənin bütün ali təhsil müəssisələrində tədrisin kredit sisteminə əsaslanan təşkili haqqında nümunəvi reqlament təsdiq olunmuşdur. Reqlament milli təhsilin humanistləşdirilməsini, təlimin tolerant pedaqoji münasibətlər prinsipi əsasında həyata keçirilməsini, informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə edilməsini, gənc nəslin dünyagörüşünün daim genişləndirilməsini nəzərdə tutur.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikasına birinci və ikinci rəhbərliyi dövründə həyata keçirdiyi və milli genofondun bərpa edilməsini nəzərdə tutan intellektual inqilab bu gün öz bəhrəsini verməkdədir. Bu inqilabın sayəsində milli insan potensialı milli insan kapitalına çevrildi. Bu kapitalın ərsəyə gətirdiyi intellektual elita bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında bütün qüvvələrini səfərbər edərək Azərbaycanı dünyanın ən inkişaf etmiş ölkələri sırasına çıxarmaq və ölkəmizi qlobal gələcəyin qurulması kimi mühüm prosesin ən vacib iştirakçılarından birinə çevirmək uğrunda mübarizə aparır.

**Elçin KƏRİMOV,**
*Mərkəzi Aran Regional Təhsil İdarəsinin müdiri*

# Həyatımda Heydər Əliyevin rolu

Azərbaycan xalqının tarixində əvəzsiz xidmətləri olmuş Ümummilli Lider Heydər Əliyevin adı gələndə gözlərimiz önündə fenomen bir şəxsiyyət canlanır. Nəfəsi ilə, canı ilə xalqına bağlı bir şəxsiyyət.

Elə bir insan ki, varlığı ilə əsl azərbaycanlı olduğunu, haqqın tərəfində vicdanla dayandığını dəfələrlə sübut edib. Həmişə çalışıb ki, ədalət qalib gəlsin, doğruluq, düzgünlük, haqq öz yerini tapsın.

1973-cü il idi. Düz əlli il bundan əvvəl mən orta məktəbi bitirib sənədlərimi ali məktəbə verdim. Qəbul imtahanlarına ciddi hazırlaşmışdım.

İmtahanlar başladı. Yazı imtahanını verdim. Şifahi imtahan günü qəflətən binanın qapılarını bağladılar. Həmin universitetin müəllimlərini içəri buraxmadılar. Xüsusi təyin olunmuş komissiya tərkibi otaqlara daxil oldu. İmtahanı həmin komissiya üzvləri götürdü. Beləliklə, sonrakı imtahanlar da komissiya üzvləri tərəfindən götürüldü.

Sonradan məlum oldu ki, bütün bunlar o dövrdə Azərbaycan KP MK-nın I katibi Heydər Əliyevin göstərişi ilə şəffaflıq olsun deyə, həyata keçirilib. Ona görə ki, savadlı Azərbaycan balaları kənarda qalmasın, daha çox layiq olanlar qəbul olsun.

Bəli, mən də o gənclərdən biri idim ki, öz haqqımı aldım. Əlbəttə, bu haqqı almaqda mənə dahi şəxsiyyət Heydər Əliyev kömək oldu.

Mən dahi şəxsiyyətlə şəxsən görüşməsəm də, həmişə onun qayğısını hiss etmişəm. Universiteti fərqlənmə diplomu ilə bitirdim. Müəllimlik fəaliyyətimə başladım. Həmişə çalışdım ki, vətənimə, xalqıma vicdanla xidmət edim, ədalətli olum.

Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra da həmişə müəllimlərə qayğısını hiss etmişəm. Dövlətimizə, dövlətçiliyimizə, xalqımıza şərəf və ləyaqətlə xidmət etməyi Ulu Öndərdən öyrənmişik. İşlədiyim müddətdə Ulu Öndərin həyat yolu həmişə mənə nümunə olub. Bütün varlığı ilə hamıya nümunə olan dahi şəxsiyyətin hər bir əməli, işi unudulmazdır. Hərtərəfli biliyə malik olması, gözəl, səlis, rəvan nitqi, güclü yaddaşı, insanlarla ünsiyyəti əsl nümunədir. Sadə, zəhmətkeş xalqın nümayəndələri ilə səmimi görüşləri, hər kəsin qiymətini verməsi, hər sahədən xəbərdar olması onu insanların qəlbində həmişə yaşadır.

Mənim kimi milyonlarla insanın həyatında müsbət rolu olan Heydər Əliyev həmişə qəlbimizdə yaşayır və yaşayacaq. Özündən sonra elə bir iz qoyub ki, onu Azərbaycan xalqı həmişə xoş xatirələrlə anır və anacaq.

Uzaqgörən dahi şəxsiyyət böyük bir məktəbdir və bu məktəbin layiqli davamçısı möhtərəm İlham Əliyev də Ulu Öndərin yolu ilə gedərək, şərəf və ləyaqətlə xalqına xidmət edir. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı kimi, düşməni məğlub edərək torpaqlarımızı işğaldan azad etdi.

44 günlük müharibə göstərdi ki, Azərbaycan xalqı Ali Baş Komandan İlham Əliyevin yanındadır,onu dəstəkləyir və Heydər Əliyev siyasi kursuna sadiqdir. Mənfur, qəddar, insanlıqdan məhrum olan düşmən nə qədər çalışsa da, bizim olanı əlimizdən ala bilməyəcək.

İşğaldan azad olunmuş torpaqlar abadlaşacaq, yenə də barlı, bərəkətli olacaq. Xalqımız o torpaqlarda şad, firavan yaşayacaq.

Ulu Öndər Heydər Əliyevin 100 illik yubiley tədbirləri Azərbaycanın bütün rayonlarında, şəhərlərində, bir sözlə, Azərbaycanın hər bir guşəsində qeyd olunur.

Mən çox xoşbəxtəm ki, müstəqil Azərbaycanın müəllimiyəm. İnanıram ki, yetirdiyim şagirdlər Azərbaycanın gələcək həyatında xüsusi rolu olan vətəndaşlar olacaq. Vətənini, xalqını, dilini, dövlətini sevən, onu qorumağı bacaran Ulu Öndər Heydər Əliyev ənənələrini davam etdirən vətəndaşlar olacaq.

**Məlahət BABAKİŞİYEVA,**
*Əməkdar müəllim*

# Türk Dövlətləri Təşkilatı təhsil nazirlərinin 7-ci iclası




## Firudin Qurbanov iclasda çıxış edib

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov Özbəkistanın Səmərqənd şəhərində keçirilən Türk Dövlətləri Təşkilatı (TDT) təhsil nazirlərinin 7-ci iclasında iştirak edib.

Firudin Qurbanov səfər çərçivəsində Özbəkistan Respublikasının məktəbəqədər və ümumtəhsil naziri Xilola Umarova və Qırğız Respublikası təhsil və elm nazirinin müavini Aida Rısbayeva ilə görüşüb. Görüşlər zamanı tərəflər arasında təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və perspektivləri müzakirə olunub. Tərəflər şagird mübadiləsi, təhsilalanların festival və olimpiadalarda birgə iştirakı, TDT çərçivəsində müştərək layihələrin icrası sahələrində əlaqələrin genişləndirilməsi üçün imkanların mövcudluğunu qeyd ediblər. Firudin Qurbanov işğaldan azad edilmiş Füzuli şəhərində Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin təşəbbüsü ilə 960 şagird yerlik məktəbin tikintisinə görə Xilola Umarovaya təşəkkürünü bildirib.

Səfər çərçivəsində nazir müavini Səmərqənd şəhərində fəaliyyət göstərən Prezident məktəbi, 48 saylı məktəbəqədər təhsil müəssisəsi və Səmərqənd Dövlət Universitetini ziyarət edib, təhsil müəssisələrində yaradılan şəraitlə tanış olub.

Firudin Qurbanov Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Omuraliyev, Özbəkistan Respublikasının məktəbəqədər və ümumtəhsil naziri Xilola Umarova, Türkiyə Respublikası milli təhsil nazirinin müavini Nazif Yılmaz, Qırğız Respublikası təhsil və elm nazirinin müavini Aida Rısbayeva, Qazaxıstan Respublikası elm və təhsil nazirinin müavini Kuanış Yerqaliyevin iştirakı ilə yüksək səviyyəli iclasda da iştirak edib.

Tədbirdə çıxış edən nazir müavini TDT çərçivəsində təhsil sahəsində görülən işlərlə bağlı məlumat verib. Firudin Qurbanov "XV əsrə qədər ortaq türk tarixi" dərsliyinin təhsil müəssisəsində fakültətiv fənn kimi tədris olunduğunu bildirib. Bundan başqa, nazir müavini Azərbaycanın ali təhsil müəssisələrinin Türk Universitetlər Birliyinin fəaliyyətində aktiv iştirak etdiyini, Azərbaycan Dövlət İqtisad Universitetinin 2023-2024-cü illər üçün birliyə sədrlik edəcəyini vurğulayıb. Türkdilli dövlətlərdən olan yeniyetmə və gənclərin müxtəlif olimpiada və yarışlarda iştirakının önəmini vurğulayan nazir müavini iyunun 1-də Şuşada türkdilli dövlətlərin uşaq rəqs qruplarının iştirakı ilə keçirilmiş "Heydər Əliyev — türk dünyası birliyinin böyük carçısı" adlı beynəlxalq uşaq rəqs festivalını və ölkəmizdə keçirilmiş "Tarix üzrə ortaq türk dünyası olimpiadası"nı nümunə çəkib.

Daha sonra gündəlikdə duran məsələlərlə bağlı tədbir iştirakçıları arasında fikir mübadiləsi aparılıb. Nazir müavini müzakirə və təklif edilən məsələlərə münasibət bildirib.

# Nazir müavini "VI ADA 2023" beynəlxalq təhsil konfransında iştirak edib




"Pandemiya dövrü qarşımıza yeni çağırışlar qoydu. Virtual təhsil platformasının yaradılması, təhsil müəssisələrinin bu prosesə operativ qoşulması sistemimizin çevik reaksiyasından xəbər verdi. Pandemiyadan öncə 33 uşağa bir kompüter düşürdüsə, indi bu rəqəm 17-dir. Bu isə onu göstərir ki, təhsil sistemimiz ümumilikdə bu çətinlikdən üzüağ çıxmağı bacardı".

Bu sözləri elm və təhsil nazirinin müavini Həsən Həsənli iyunun 22-də keçirilən "VI ADA 2023" beynəlxalq təhsil konfransının açılış mərasimindəki çıxışı zamanı deyib.

Konfrans ADA Universiteti, Elm və Təhsil Nazirliyi və ABŞ-nin "Anthology" Təhsil və Tədqiqat Mərkəzinin əməkdaşlığı ilə "Maarifçiliyə yenidən baxış" şüarı altında keçirilir.

Maarifçilik və rəqəmsal inqilab təcrübəsini yenidən nəzərdən keçirməyi, həmçinin təhsil ictimaiyyətini müzakirələrə təşviq etməklə qarşıya çıxan problemlərin həllini hədəfləyən konfransda öyrənmə, liderlik və təhsil müəssisələri, qiymətləndirmə, dəyərləndirmə daxil olmaqla müxtəlif mövzularda tədqiqatlar qəbul edilib.

Tədbir zamanı "Anthology" Təhsil və Tədqiqat Mərkəzinin əməkdaşları tərəfindən ADA Universitetinə "Akademik mükəmməllik mərkəzi" mükafatı təqdim edilib.

Konfrans panel müzakirələri ilə davam etdirilib.

# "Təhsilin inkişafında innovativ metodlar" müsabiqəsinin finalçıları ilə görüş





Təhsilin İnkişafı Fondunun təşəbbüsü ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr edilmiş "Təhsilin inkişafında innovativ metodlar" müsabiqəsi finalçılarının iştirakı ilə görüş keçirilib.

Bu barədə AZƏRTAC-a fonddan məlumat verilib.

Bildirilib ki, görüşün başlıca məqsədi təqdim edilmiş layihə və təkliflərin dinlənilməsi, müzakirəsi və dəstəklənməsi perspektivlərinin dəyərləndirilməsi olub.

Görüşdə Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov "Təhsilin inkişafında innovativ metodlar" müsabiqəsi haqqında məlumat verib. İki mərhələdən ibarət olan müsabiqəyə 20 gün ərzində Azərbaycanın 28 dövlət və özəl ali təhsil müəssisəsindən 150 müraciətin daxil olduğu qeyd edilib.

Elnur Nəsibov qonaqlara bu təşəbbüsdə iştirak etdikləri üçün minnətdarlığını bildirib.

Görüş zamanı tələbələr "İnklüziv təhsilin inkişafı", "Qeyri-formal təhsil metodları", "Təhsildə texnologiyanın tətbiqi" və "Təhsildə idarəetmə" mövzuları üzrə ideya və təkliflərini təqdim ediblər. Hər çıxışdan sonra qonaqlar və tələbələr arasında layihələrə dair müzakirələr aparılıb.

# AzMİU-da valideynlər və media nümayəndələri imtahan prosesini izləyiblər



Azərbaycan Memarlıq və İnşaat Universitetində 2022/2023-cü tədris ilinin yaz semestrinin imtahan sessiyası çərçivəsində valideynlər üçün "Açıq qapı" günü keçirilib. "Açıq qapı" günündə Nəqliyyat, Su təsərrüfatı və mühəndis kommunikasiya sistemləri, İnşaat və Memarlıq fakültələrində təhsil alan tələbələrin valideynləri, həmçinin media nümayəndələri iştirak ediblər.

Əvvəlcə AzMİU-nun rəhbərliyi, İmtahan Qərargahının nümayəndələri, həmçinin ictimai və tələbə təşkilatlarının rəhbərləri ilə görüş keçirilib.

Görüşdə AzMİU-nun rektoru professor Gülçöhrə Məmmədova çıxış edərək imtahan prosesi haqqında məlumat verib.

Rektor imtahanların gedişində şəffaflıq və obyektivliyin təmin edilməsi istiqamətində görülən işlərdən, həmçinin imtahanların keçirilməsi qaydaları, biliyin qiymətləndirilməsi meyarları və müraciətlərə baxılma mexanizmlərindən danışıb.

Sonra valideynlərin və media nümayəndələrinin sualları cavablandırılıb.

Görüşdən sonra birgə imtahan prosesi izlənilib. Xüsusi ayrılmış zallarda test və yazılı imtahanların gedişini izləyən valideynlər, eyni zamanda yazılı imtahanların şifrələnmə otağında olub, prosesə canlı şahidlik ediblər.

İyunun 1-dən başlayan İmtahan sessiyası iyulun 5-dək davam edəcək. İmtahanlarda ümumilikdə 8000-dən çox tələbə iştirak edir.

Təsdiq olunmuş imtahan cədvəlinə uyğun olaraq tələbələr yazılı və test üsulları ilə imtahan verirlər. Qabiliyyət tələb edən fənlər üzrə isə ənənəvi qaydada fakültələrdə imtahan götürülür. Bütün imtahanlar mərkəzləşdirilmiş qaydada keçirilir.

İmtahanların nəticəsindən yarana biləcək narazılıqların, neqativ halların mövcud qaydada araşdırılması və həll edilməsi məqsədi ilə AzMİU-nun rəhbər və məsul şəxslərindən, universitetdə fəaliyyət göstərən ictimai təşkilatların nümayəndələrindən ibarət İmtahan Qərargahı yaradılıb.

Bundan əlavə, imtahan sessiyası dövründə birbaşa rektorun sədrliyi ilə yaradılmış Münaqişə (Apellyasiya) Komissiyası da fəaliyyət göstərir. Burada imtahanların nəticələri barədə müraciətlərə baxılır və aşkar edilmiş çatışmazlıqlar aradan qaldırılır.

**Şakir CƏFƏROV**

# "Heydər Əliyev dayanıqlı Azərbaycan peşə təhsilinin yaradıcısıdır"

İyunun 16-da Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin mətbu orqanı olan "Peşə təhsili və insan kapitalı" elmi-praktiki, metodiki jurnalı redaksiyasının təşkilatçılığı və Peşə Təhsili üzrə Dövlət Agentliyinin dəstəyi ilə Xaçmaz Dövlət Peşə Təhsil Mərkəzində Quba-Xaçmaz iqtisadi rayonunu əhatə edən peşə təhsili müəssisələrinin iştirakı ilə oxucularla görüş baş tutub.

Tədbirdə redaksiyanı təmsil edən əməkdaşlarla bərabər Peşə Təhsili üzrə Dövlət Agentliyinin Müəssisələrlə iş şöbəsinin aparıcı məsləhətçisi Cəsarət Yusifov, Yeni Azərbaycan Partiyasının Xaçmaz Rayon Təşkilatının məsul işçisi Fazil Rəhmətov, Xaçmaz Rayon İcra Hakimiyyəti Aparatında Vətən Müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Vüqar Fərzəliyev, Quba-Xaçmaz iqtisadi rayonunu əhatə edən peşə təhsili müəssisələrinin rəhbərləri - Quba Peşə Liseyinin direktoru Hüseynağa Baxışov, Qusar Peşə Liseyinin direktoru İmaməddin Zəkiyev, Xaçmaz Peşə Liseyinin direktor əvəzi Elmira Kərimova, Siyəzən Peşə Məktəbinin direktoru Damət Baxşıyev, Şabran Peşə Məktəbinin direktoru Mərziyyə Əskərova və Xaçmaz Peşə Məktəbinin direktor əvəzi Rüfət Xəlilov və onların rəhbərlik etdiyi kollektivin üzvləri də iştirak ediblər.

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunan "Heydər Əliyev dayanıqlı Azərbaycan peşə təhsilinin yaradıcısıdır" adlı tədbirin keçirilməsində əsas məqsəd Heydər Əliyevin peşə təhsilinin inkişafındakı rolunu dəyərləndirmək, Ulu Öndərin təhsil, eləcə də peşə təhsili sahəsində gördüyü işlərin təhlili və bu sahədə aparılan islahatların Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsiniişıqlandırmaqdan ibarət olub.

Tədbir öncəsi qonaqlar Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini hörmət və ehtiramla yad ediblər. Daha sonra Xaçmaz Peşə Liseyinin direktor əvəzi Elmira Kərimova qonaqları liseyin tədris emalatxanaları ilə tanış edib. Tədbiri giriş sözü ilə açan E.Kərimova region üzrə belə bir görüşün məhz Xaçmaz Peşə Liseyində keçirildiyinə görə jurnalın redaksiya heyətinə öz dərin təşəkkürünü bildirib və sözü "Peşə təhsili və insan kapitalı" jurnalının baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru Şahbaz Balakişiyevə verib.



Öncə qonaqları salamlayan baş redaktor "Heydər Əliyev dayanıqlı Azərbaycan peşə təhsilinin yaradıcısıdır" mövzusuna həsr edilən geniş təqdimatla çıxış edib, eyni zamanda çıxış ərəfəsində Ulu Öndərin həyat yoluna işıq salan videoçarx da tədbir iştirakçılarınatəqdim olunub. Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın inkişafındakı misilsiz xidmətləri, peşə təhsili sahəsində gördüyü işlər, eləcə də bu il yaranmasının 180 ili tamam olan peşə təhsilinin tarixi də təqdimatda öz əksini tapıb.

Tədbirin sıradan bir təqdimat olmadığına diqqət çəkən baş redaktor bunun müasir Azərbaycanın qurucusu, Müstəqil Azərbaycan adlı şah əsərin müəllifi, Azərbaycan xalqının bugünkü bütün uğurlarının səbəbkarı olan Heydər Əliyevlə bağlı olduğunu qeyd edib. Eyni zamanda bu il Azərbaycanda həm də peşə təhsilinin 180 illiyinin qeyd edildiyi vurğulanıb. Heydər Əliyevin Azərbaycanda hakimiyyətdə olduğu illərin ən mühüm dövrü eyni zamanda ölkəmizdə peşə təhsilinin inkişafı ilə bağlıdır. Həm də eyni dövrdə - 1969-cu ildə "Peşə təhsili və insan kapitalı" jurnalının ilk nömrəsi "Gənc fəhlə" adı ilə nəşrə başlayıb. Təqdimatda həm peşə təhsilinin 180 illik tarixi, həm də Ulu Öndərin hakimiyyətə gəlişi ilə (1969-1982), (1993-2003) peşə təhsilinə göstərilən diqqət və qayğı tam tədqiqat obyektinə çevrilib.

"Respublikamızada peşə təhsili üzrə yeganə mətbu bir orqanda uzun müddət çalışan, peşə təhsilinə bələd bir şəxs kimi özümə borc bildim ki, belə bir tədbiri peşə təhsili müəssisələrində çalışan mütəxəssislərlə birlikdə qeyd edək və həm də onların problemləri ilə yaxından tanış olaq. Peşəkar olmaq üçün nələri bilmək və nəyi bacarmaq lazımdır? İqtisadi elmləri, metodikanı bilmək, eyni zamanda innovasiyalarla tanış olmaq kifayətdirmi? Bütün bu və ya digər suallara cavab tapmaq üçün jurnalımızı üç istiqamət üzrə - pedaqogika, iqtisadiyyat və texnika bölmələrinə ayırmışıq. Üç dildə çap olunan jurnal bu bölmələrə aid yazılarla tam əhatə olunur. Jurnalın bir neçə beynəlxalq indeksi var və çap olunan kimi jurnalı saytımıza yerləşdiririk ki, oxucu auditoriyamız daha da genişlənsin. Yeni DOİ indeksinə yiyələnməklə jurnalımız ingilis dilinə tərcümə olunur və dünyada jurnalımıza istinad edilir"-deyən baş redaktor tədbir iştirakçılarının nəzərinə çatdırıb ki, biz bundan sonra da çalışacağıq ki, jurnalımızda bir-birindən maraqlı yazılar dərc edək və bu yazılar da müəllimlərin köməyinə çatsın.

Təqdimatdan sonra peşə təhsili müəssisələrinin rəhbərləri, əməkdaşları çıxış edərək Ulu Öndərin dəyərli irsinin həmişə xalqımız üçün gərəkli olduğunu, Heydər Əliyev ideyalarından bəhrələndiklərini, eləcə də bu ideyaların təhsil sisteminin inkişafındakı mühüm rolunu qeyd etdilər.

Beləliklə, tədbir iştirakçıları həm keçirilən tədbirin əhəmiyyətindən, həm də respublikada peşə təhsilinin ictimai statusunun yüksəldilməsində bölgə üzrə qarşılaşdıqları problemlərdən danışdılar və bu problemlərin həll edilməsi üçün öz təkliflərini irəli sürdülər. Sonda bir neçə təhsil işçisi və iş adamı redaksiya ilə sıx əməkdaşlıqlarına ğörə redaksiyanın Diplomu ilə təltif edildilər.

Tədbirin yaddaqalan məqamlarından biri də Xazmaz Peşə Liseyinin bir qrup əməkdaşına "Heydər Əliyev İli" çərçivəsində Yeni Azərbaycan Partiyası sıralarına daxil olması münasibətilə onlara üzvlük vəsiqələrinin təqdim edilməsi oldu.

**Vüqar SƏLİMOVA,**
*"Peşə təhsili və insan kapitalı" jurnalının şöbə redaktoru*

# Sertifikasiya – davamlı inkişaf

## Nazir müavinləri və ictimaiyyət nümayəndələri sertifikatlaşdırma imtahanlarını izləyiblər



Elm və təhsil nazirinin müavini Firudin Qurbanov bölgələrdə təşkil edilən sertifikatlaşdırma imtahanlarının gedişatı ilə tanış olmaq məqsədilə iyunun 22-də Sumqayıt şəhərinə səfər edib.

Nazir müavini Firudin Qurbanov, millət vəkili Müşfiq Məmmədli, Təhsil İnstitutunun İnsan Resursları Mərkəzinin direktoru Nurlan İsmayılbəyli və yerli təhsili idarəetmə qurumlarının rəhbərləri Sumqayıt şəhərində təşkil edilmiş mərkəzdə keçirilən test imtahanlarını izləyiblər.

Qonaqlara məlumat verilib ki, sertifikatlaşdırma imtahanları Abşeron — Xızı Regional Təhsil İdarəsi üzrə 1 mərkəzdə təşkil olunub. Sumqayıt şəhərində keçirilən imtahanlara Sumqayıt, Abşeron və Xızıda yerləşən ümumi təhsil müəssisələrində çalışan ibtidai sinif müəllimləri cəlb olunublar.

İmtahan prosesini izləyən Firudin Qurbanov qeyd edib ki, sertifikatlaşdırma prosesinin məqsədi müəllimlərin fasiləsiz inkişafının təmin olunması üçün onların peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi və ehtiyaclarının müəyyən edilməsidir. Sertifikatlaşdırmanın nəticələri müəlllimlərin karyera inkişafı üçün vacib həlqədir. Nazir müavini bildirib ki, ümumi təhsil müəssisələrinə direktorların seçimi prosesinin müsahibə mərhələsində namizədlərin sertifikatlaşdırma nəticələrinə də baxılacaq.



Elm və təhsil nazirinin müavini Həsən Həsənli bölgələrdə təşkil edilən sertifikatlaşdırma imtahanlarının gedişatı ilə tanış olmaq məqsədilə iyunun 21-də Şirvan şəhərinə səfər edib.

Nazir müavini Həsən Həsənli, Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, millət vəkili İltizam Yusifov və yerli təhsili idarəetmə qurumlarının rəhbərləri Şirvan şəhərində təşkil edilmiş 3 mərkəzdə keçirilən test imtahanlarını izləyiblər.

Qonaqlara məlumat verilib ki, sertifikatlaşdırma imtahanları Şirvan-Salyan Regional Təhsil İdarəsi üzrə 4 mərkəzdə təşkil olunub. Şirvan şəhərində keçirilən imtahanlara Şirvan-Salyan, Mil-Muğan və Lənkəran-Astara regional təhsil idarələrinə aid müəssisələrdə çalışan müəllimlər cəlb olunublar.

İmtahan prosesini izləyən Həsən Həsənli qeyd edib ki, sertifikatlaşdırma təhsil sistemimiz üçün yenilik olmasına baxmayaraq, gələcək uğurlarımızın təməli kimi dəyərləndirilə bilər. Eyni zamanda bu proses inkişafa ehtiyacı olan istiqamətləri müəyyənləşdirməyə imkan yaradacaq. Prosesin təşkilində məqsəd şagirdlər üçün ən yaxşı təhsili təmin edə bilməkdir. Sertifikatlaşdırma müəllimin öz üzərində mütəmadi işləməsi, nəticəsini yaxşılaşdırması üçün ciddi stimul yaradır.



Sertifikatlaşdırma imtahanlarının gedişi ilə yaxından tanış olmaq məqsədilə Elm və Təhsil Nazirliyinin nümayəndələri, millət vəkilləri, media qurumlarının rəhbərləri və tanınmış ictimaiyyət nümayəndələrinin iştirakı ilə iyunun 20-də imtahanların keçirildiyi Bakı şəhəri 161 nömrəli tam orta məktəbə mediatur təşkil edilib.

Mediatur iştirakçılarına məlumat verilib ki, bu gün ilk olaraq ibtidai sinif müəllimləri üçün sertifikatlaşdırma imtahanları keçirilir. 20000-ə yaxın ibtidai sinif müəllimi 20-23 iyun tarixlərində imtahana cəlb olunacaq. İyunun 24-də isə 8500-dən çox Azərbaycan dili və ədəbiyyat müəllimi üçün test imtahanları keçiriləcək.

Mediaturda iştirak edən Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli qeyd edib ki, sertifikatlaşdırma müəllimlərin davamlı inkişaf prosesidir və sertifikatlaşdırmadan keçən müəllimlər tədris prosesində daha üstün səriştə, bacarıq sərgiləyirlər.

Mətin Kərimli əlavə edib ki, sertifikatlaşdırma diferensiallaşmış əməkhaqqı sisteminin tətbiqinə uyğun maaş artımına və sosial rifahın yüksəlməsinə də imkan yaradır.

Daha sonra qonaqlar proseslə bağlı fikir mübadiləsi aparıblar.

Qeyd edək ki, sertifikatlaşdırma imtahanları 20-24 iyun tarixlərini əhatə edir. Test imtahanları ölkənin 13 müxtəlif şəhəri üzrə 23 mərkəzdə təşkil olunub.

# Sertifikasiya həyəcanı, imtahan sevinci...

⇦ Əvvəli səh.1

### İştirakçı fəallığı nümayiş olunur

Test imtahanlarında ilk gündən başlayaraq fəallıq müşahidə olunur. Hər gün dəvət olunan müəllimlərin 95 faizindən çoxu imtahanlara qatılır.

Prosesə ictimaiyyətin də böyük marağı hiss olunur. Bunu nəzərə alan Elm və Təhsil Nazirliyi ictimaiyyət nümayəndələri üçün mediatur təşkil edərək prosesin şəffaflığını təmin edir.

İmtahan həyəcanı 30-40 ilin müəllimlərini də haldan-hala salır. Güclü emosiyalar gülümsəyən dodaqlarda, yaşla dolan gözlərdə özünü büruzə verir. Uğur qazananlar uğurun sevinci ilə sanki uçmağa qanad axtarırlar. Bir sözlə, müəllimlərin imtahandan öncəki həyəcanı gərginliyə səbəb olursa, imtahandan sonra göz yaşlarına çevrilir. Birinin göz yaşı sevinc, başqasının göz yaşı...

### "Ekranda 60 balı görəndə..."

Sevinci gözlərindən oxunanlar daha çoxdur. Onlardan biri sertifikasiyada imtahanların ilk günü iştirak edib və mümkün olan ən yüksək nəticəni qazanıb. Salyan rayonunun Salman Zəfərov adına Yenikənd tam orta məktəbinin müəllimi Flora Dünyamalıyeva qazandığı uğura özü də inanmayıb, çox hazırlaşdığına baxmayaraq: "Ekranda 60 balı görəndə gözlərimə inanmadım. Sevincdən, sözün əsl mənasında, şoka düşdüm. Hələ indi özümə gəlirəm".

Flora müəllim sualları çox rahat cavablandırıb. Diqqət tələb edənlər də olub, asanlıqla həllini tapanlar da: "Azərbaycan dilindən çox çətin suallar deyildi. Onları asanlıqla cavablandırdım. Amma riyaziyyat bir az diqqət tələb edirdi".

57 yaşlı müəllim sualları belə asanlıqla cavablandıra bilmək üçün nə edib? Dediyinə görə, var gücü ilə hazırlaşıb: "Əslində, ibtidai sinif müəllimliyi əsas ixtisasım deyil. Rus dili müəllimliyi üzrə təhsil almışam. Məktəbdə rus dili dərsləri azalanda direktor təklif etdi ki, ibtidai sinif müəllimliyinə keçim. Məktəbimizdə ibtidai sinif müəllimi az idi. Keçdim, amma daim özümdə çox məsuliyyət hiss edirdim. Çoxlu dərs vəsaitləri almışdım, oxudum və bəhrəsini gördüm. İxtisas müəllimi olmasam da, ən yüksək balı topladım".

### "60 bal yığmaq daha həyəcanlıdır, nəinki sertifikasiya"

İmtahanın ilk günü Şirvan-Salyan Regional Təhsil İdarəsi, sadəcə iştirakçı fəallığı ilə deyil, həm də 60 bal xəbərləri ilə gündəmə gəlib. Belə ki, Salyan rayon 2 nömrəli tam orta məktəbin müəllimi Şahinə Məmmədova da ən yüksək balla önə çıxanlardan olub. 46 yaşlı müəllim bütün sualları düzgün cavablandıraraq 60 bal toplayıb, özü də heç həyəcanlanmadan: "Bu göstərici zəhmətimin nəticəsidir. İmtahanı səbirsizliklə gözləyirdim, rahat da verdim.- Yaxşı təşkil olunmuşdu, rahat və şəffaf keçdi. İmtahanın gedişində heç həyəcanlanmadım. Düzü, özümdən əmin idim. Baza təhsilim var. Özümə də güvənirdim. Çünki daim oxuyurdum, təkrarlayırdım, öz üzərimdə işləyirdim. Bilmədiyim hansısa məsələ olanda araşdırırdım. Elə imtahana da ciddi hazırlaşdım. Ancaq topladığım balı görəndə həyəcanlandım. Sən demə, 60 bal yığmaq daha həyəcanlıdır, nəinki sertifikasiya imtahanı".

Qeyd edək ki, Şirvan -Salyan Regional Təhsil İdarəsi tabeliyində olan məktəblərdən ümumilikdə 1284 nəfər ibtidai sinif və 412 nəfər Azərbaycan dili və ədəbiyyat müəllimi olmaqla, cəmi 1696 nəfər imtahana çağırılıb. Sertifikatlaşdırma imtahanları Şirvan-Salyan Regional Təhsil İdarəsi üzrə 4 mərkəzdə təşkil olunub.

Şirvan şəhərində keçirilən imtahanlara Şirvan-Salyan Regional Təhsil İdarəsi ilə yanaşı, Mil-Muğan və Lənkəran-Astara regional təhsil idarələrinə aid müəssisələrdə çalışan müəllimlər cəlb olunublar.

## Yüksək nəticə göstərən MÜƏLLİMLƏR



Südabə Qaziyeva



Flora Dünyamalıyeva



Sona İlyasova

### Bir məktəbdən iki müəllim fərqləndi

Lənkəran-Astara Regional Təhsil İdarəsinə aid ən yaxşı nəticə eyni məktəbin 2 müəllimindən gəlib. Masallı rayonu Yeyənkənd kənd Ə.İsmayılov adına tam orta məktəbin iki müəllimi - Aliyə Hüseynova və Sevinc Fərəcova fərqlənib. Hər ikisi sertifikatlaşdırma imtahanının ikinci günündə yüksək nəticə - 59 bal toplayıb.

Şərqi Zəngəzur Regional Təhsil İdarəsi üzrə 1656 nəfər ibtidai sinif, 532 nəfər Azərbaycan dili və ədəbiyyatı müəllimi olmaqla ümumilikdə 2188 nəfər müəllim sertifikasiya prosesinin test imtahanı mərhələsinə cəlb edilib.

Şərqi Zəngəzur Regional Təhsil İdarəsində də indiyədək qeydə alınan nəticə 59 bal olub. Region üzrə ən yüksək nəticəni Laçın rayon 6 nömrəli tam orta məktəbin müəllimi Sona İlyasova göstərib. O, imtahanda maksimum 60 baldan 59-nu toplayıb.

Qazax-Tovuz Regional Təhsil İdarəsinin tabeliyində olan ümumi təhsil müəssisələrindən 2600 nəfərdən çox müəllim sertifikasiya imtahanlarında iştirak edir. Burada da ən yüksək göstərici 59 bal qeydə alınıb. Göycəli kənd tam orta məktəbinin ibtidai sinif müəllimi Leyla Məmmədova 59 dəqiqə ərzində 59 suala doğru cavab yazıb.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki ümumi təhsil müəssisələrindən sertifikatlaşdırma prosesinə 2072 təhsilverən dəvət edilib. Test imtahanı mərhələsində 1596 Azərbaycan dili və ədəbiyyatı, 476 ibtidai sinif müəlliminin iştirakı nəzərdə tutulub.

Bakı şəhəri üzrə imtahan verənlər arasında hələlik 60 bal toplayan olmayıb.

Şəki-Zaqatala Regional Təhsil İdarəsində də hələlik ən yüksək nəticə 59-dur. Bu nəticəni göstərənlərdən biri Vətən müharibəsi Qəhrəmanı, şəhid Valeh Bədəlovun anası Südabə Qaziyeva sertifikatlaşdırma imtahanının ikinci günündə yüksək nəticə əldə edib.

Gəncə-Daşkəsən Regional Təhsil İdarəsi üzrə 838 nəfər ibtidai sinif və 637 nəfər Azərbaycan dili və ədəbiyyat müəllimi olmaqla, ümumilikdə 1475 nəfər sertifikasiya imtahanına dəvət olunub.

Mərkəzi Aran Regional Təhsil İdarəsi üzrə 2296 nəfər ibtidai sinif və 636 nəfər Azərbaycan dili və ədəbiyyat müəllimi olmaqla, cəmi 2932 nəfərin prosesdə iştirakı nəzərdə tutulub.

Test imtahanı iyunun 24-dək davam edəcək. Avqust ayının sonunda müsahibə mərhələsinin keçirilməsi nəzərdə tutulub.

### Könüllü imtahan vermək istəyənlər üçün ayrıca qrafik təşkil ediləcək

Xatırladaq ki, sertifikasiya imtahanlarına dəvət olunan 60 yaşına çatmamış təhsilverənlərdir. Yaşı 60-dan yuxarı olan 5700-dən çox müəllim sertifikasiya imtahanında iştirak etmir. Elm və Təhsil Nazirliyi sentyabrın 15-dək 60 yaşı tamam olan, həmçinin yaşı 60-dan yuxarı olan təhsilverənlərin sertifikatlaşdırma prosesinə dəvətini "Dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası"ndakı dəyişikliklər qüvvəyə minənədək ləğv edib. Onların sertifikasiya imtahanında könüllü iştirakı ilə bağlı təklif qərara çevrilərsə, həmin şəxslərə görə ayrıca imtahan qrafiki təşkil ediləcək və qrafik çərçivəsində test imtahanı və müsahibələr keçiriləcək.

### Sertifikasiyanın nəticəsi nə olacaq?

Sertifikasiya imtahanlarının nəticələrinə gəlincə, ilk növbədə prosesi uğurla tamamlayan müəllimlərin maaşı artacaq. Ən yüksək nəticə göstərənlərin maaşlarına daha çox - 35 faiz əlavələr olacaq. Onlarla bağlı başqa planlar da var. Belə ki, gələcəkdə direktor və direktor müavinləri seçimində sertifikasiya balı da nəzərə alınacaq. Eyni zamanda, məktəbəsaslı metodist xidməti üçün sertifikasiyadan keçən müəllimlərə üstünlük veriləcək.

**Ruhiyyə DAŞSALAHLI**

# Doktorantların və gənc tədqiqatçıların XXVI Respublika elmi konfransı keçiriləcək




Konfransın keçirilməsində əsas məqsəd doktorantların və gənc tədqiqatçıların apardıqları elmi-tədqiqat işlərinin nəticələrinin müzakirəsini təşkil etmək, habelə onların elmi yaradıcılığını stimullaşdırmaqdır.

**Konfransın istiqamətləri:**

* Təbiət elmləri (riyaziyyat, fizika, mexanika, kimya, biologiya, biotexnologiya, neft-kimya, enerji resursları, tibb, ətraf mühit, yer haqqında elmlər, coğrafiya və s.);

* İKT və mühəndislik (elektrik, qazma, elektronika, robototexnika, avtomatlaşdırma və inşaat mühəndisliyi, maşınqayırma, süni intellekt və data elmi, kibertəhlükəsizlik və digər kompüter elmləri və s.);

* Sosial-humanitar elmlər (təhsil, sosiologiya, politologiya, kulturologiya, hüquq, tarix, dilçilik, ədəbiyyatşünaslıq, psixologiya, pedaqogika, metodika, iqtisadiyyat, turizm və s.).

**Konfransın önəmli tarixləri:**

Tam mətn məruzələrin göndərilməsi üçün son tarix: **01.08.2023**
Qəbul olunmuş məruzələrin elanı üçün son tarix: **16.10.2023**
Konfrans proqramının elan olunması: **26.10.2023**
Konfransın tarixləri: **10-11.11.2023**

**Kimlər iştirak edə bilər?**

Konfransda təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan vətəndaşı olan respublikada və xaricdə ali təhsil müəssisələrində və elmi tədqiqat institutlarında fəlsəfə doktoru proqramı üzrə təhsil alan doktorantlar və dissertantlar, doktorantura/dissertantura təhsilini bitirmiş müdafiə ərəfəsində olan şəxslər, həmçinin fəlsəfə doktoru elmi dərəcəsi almış 35 yaşa qədər gənc tədqiqatçılar iştirak edə bilərlər.

Konfransa tezis ilə müraciət etmək üçün aşağıdakı keçiddən istifadə etməyiniz xahiş olunur: **https://forms.gle/iE59NJa1akd4aDYa7**

Konfransa təqdim olunacaq bütün tezislər əsasnamədə **(Əsasnamə)** *(https://arti.edu.az/wp-content/uploads/2023/06/%C6%8Fsasnam%C9%99.pdf)* qeyd olunan müvafiq yazı qayda və standartlarına uyğun olmalıdır. Əks halda təqdim olunmuş tezislər konfransın təşkilat komitəsi tərəfindən imtina cavabı alacaqdır.

Konfransda məruzə etməyən şəxslərə sertifikat verilməyəcək və onların tezisi çap olunmayacaqdır.

Həmçinin, keçiddən istifadə edərək tezis nümunəsinə baxa bilərsiniz: Tezis nümunəsi *(https://arti.edu.az/wp-content/uploads/2023/06/Tezis-numun%C9%99si.pdf)*

**Qeyd:** Müraciət etmək üçün **“Gmail”** hesabınızın olması mütləqdir!

Konfransla əlaqədar hər hansı sual, təklif, problemlərlə bağlı **nasco25@arti.edu.az** elektron poçt ünvanına yaza bilərsiniz.

# “Təhsilverənlərin sertifikatlaşdırılmasının təhsilin keyfiyyətinə təsiri”




## “Azərbaycan məktəbi” jurnalı Təhsil İnstitutu ilə birlikdə müzakirə keçirib

Elm və Təhsil Nazirliyinin “Azərbaycan məktəbi” jurnalı Təhsil İnstitutunun mütəxəssisləri ilə birlikdə “Təhsilverənlərin sertifikatlaşdırılmasının təhsilin keyfiyyətinə təsiri” mövzusunda müzakirə keçirib. Müzakirədə Təhsil İnstitutunun direktor müavini Könül Abaslı, İnstitutun Metodik dəstək və peşəkar inkişaf mərkəzinin direktoru Nəzakət Mehdiyeva, Təhsildə strateji tədqiqatlar şöbəsinin müdiri Leyla Sultanlı və “Azərbaycan məktəbi”nin əməkdaşları iştirak ediblər.

Giriş sözü ilə jurnalın baş redaktoru Arzu Soltan çıxış edərək müzakirə olunacaq mövzunun - müəllimlərin sertifikatlaşdırılmasının təhsildə bir islahat olduğunu qeyd edib.

ARTİ-nin Metodik dəstək və peşəkar inkişaf mərkəzinin direktoru Nəzakət Mehdiyeva imtahanda müəllimdən tədris etdiyi fənni yüksək səviyyədə bilməklə yanaşı, öyrətmə bacarığının qiymətləndirilməsinə önəm verildiyini vurğulayıb. Prosesin 2026-cı ilə qədər davam edəcəyini və qiymətləndirmə nəticəsində əldə olunan məlumatların gələcəkdə təhsilverənin peşə standartlarında öz əksini tapacağını diqqətə çatdırıb.

Tədbirdə Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktor müavini Könül Abaslı, Təhsildə strateji tədqiqatlar şöbəsinin müdiri Leyla Sultanlı, “Azərbaycan müəllimi” qəzetinin şöbə redaktoru, filologiya üzrə fəlsəfə doktoru Şakir Cəfərov və “Azərbaycan məktəbi” jurnalının şöbə redaktoru Zemfira Məmmədqızı çıxış edərək mövzu ilə bağlı fikirlərini tədbir iştirakçıları ilə bölüşüblər.

Ekspertlər tərəfindən sertifikatlaşdırma ilə bağlı suallar cavablandırılıb.

Sonda “Azərbaycan məktəbi” jurnalının baş redaktoru Arzu Soltan gələcəyimiz olan şagirdlərimizin bilikli, savadlı, milli-mənəvi dəyərlərimiz ruhunda əsl şəxsiyyət kimi yetişməsində müəllimlərimizin əvəzsiz rolunu vurğulayıb.

**Şakir CƏFƏROV**

# Birgə əməkdaşlıq, yeni hədəflər

## Təhsilin İnkişafı Fondu ilə Dövlət Məşğulluq Agentliyi arasında əməkdaşlıq imkanları müzakirə edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyində Elm və Təhsil Nazirliyinin tabeliyində Təhsilin İnkişafı Fondunun nümayəndələri ilə görüş olub.

Əməkdaşlıq istiqamətlərinin müzakirə olunduğu görüşdə Agentliyin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli aktiv məşğulluq tədbirlərinin ildən-ilə genişləndiyini, yeni əməkdaşlıqlar hesabına bir sıra layihələrin icra edildiyini diqqətə çatdırıb. O, eyni zamanda peşəkar kadrların hazırlanması istiqamətində Agentlik tərəfindən görülən tədbirlər, peşə hazırlığının təşkili mexanizmi barədə də məlumat verib.




Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov Fondun fəaliyyəti, həyata keçirilən layihələr və proqramlardan danışıb. Universitet-sənaye işbirliyinin möhkəmləndirilməsi, peşəkar kadr hazırlığının təmin olunması və sosial cəhətdən həssas kateqoriyadan olan vətəndaşların dəstəklənməsini hədəfləyən layihələrdə Agentlik ilə əməkdaşlıq əlaqələrinin qurulmasının əhəmiyyətini qeyd edib. E.Nəsibov həmçinin bu il ilk dəfə təşkil ediləcək “Təhsilin İnkişafı Forumu” na Agentliyi tərəfdaş olaraq dəvət edib.

Daha sonra iki qurum arasında əməkdaşlıq perspektivlərinə dair müzakirələr aparılıb.

# ADPU-nun Quba filialı Beynəlxalq simpoziuma ev sahibliyi edib



İyunun 16-da ADPU-nun Quba filialında Quba Rayon İcra Hakimiyyətinin, Xəzər Universitetinin, MUSIAD Azərbaycanın və Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının birgə təşkilatçılığı ilə Türkiyə Cümhuriyyətinin yaradılmasının 100 illiyinə, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş Beynəlxalq simpozium keçirilib. Beynəlxalq simpoziumda Quba Rayon İcra Hakimiyyəti aparatının məsul şəxsləri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, təşkilatçı qurumların, ictimai təşkilatların rəhbərləri, şəhid ailələri, ADPU-nun və Xəzər Universitetinin nümayəndə heyəti, mədəniyyət işçiləri, gənclər və tələbələr iştirak ediblər.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin Quba şəhərindəki abidəsi və Azərbaycan-Türkiyə qardaşlıq parkı ziyarət edilib.

Türkiyə Cümhuriyyətinin və Azərbaycan Respublikasının Dövlət himnlərinin səsləndirilməsi ilə açıq elan edilən simpozium ADPU-nun Quba filialının direktoru, fizika elmləri doktoru, dosent Yusif Alıyevin moderatorluğu ilə davam edib. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Qazi Mustafa Kamal Atatürkün və şəhidlərin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilib.

Konfransda giriş nitqi ilə çıxış edən fizika elmləri doktoru, dosent Yusif Alıyev ADPU-nun rektoru professor Cəfər Cəfərovun salamlarını çatdırıb, simpoziumun keçirilməsində əməyi olan təşkilatçılara öz dərin təşəkkürünü bildirib, regionda keçirilən beynəlxalq miqyaslı tədbirlərin əhəmiyyətindən bəhs edib. Vurğulayıb ki, simpoziumun mövzusu olduqca yüksək əhəmiyyətli tarixi hadisələri özündə ehtiva edir. Fəxrlə deyə bilərik ki, Türk xalqının Ulu Öndəri Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir”, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin “Bir millət, iki dövlət” fəlsəfəsi üzərində qurulan Azərbaycan-Türkiyə münasibətləri özünün ən yüksək səviyyəsinə çatıb. Prezident İlham Əliyev ilə Prezident Rəcəb Tayyib Ərdoğan arasındakı qardaşlıq münasibətləri ölkələrimiz arasındakı dostluq bağlarının daha da möhkəmlənməsinə, qardaş xalqlarımızın maraqlarının beynəlxalq miqyasda təmin olunması işinə xidmət edir.

Tədbirdə məruzələrlə çıxış edənlər - Quba Rayon İcra Hakimiyyəti başçısının müavini Səidə Abasova, Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyinin mədəniyyət müşaviri professor Muhittin Macid, Xəzər Universitetinin təsisçisi professor Hamlet İsaxanlı, Azərbaycan Dövlət Pedaqoji Universitetinin elm və innovasiyalar üzrə prorektoru professor Asəf Zamanov, İstanbul Universiteti Edebiyat Fakültesi Çağdaş Türk Lehçeleri ve Edebiyatları Bölüm başkanı professor Mehmet Ölmez, MÜSİAD Azərbaycanın başqanı Rəşad Cabirli qeyd ediblər ki, tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim möhkəmlənməkdədir. Xalqlarımızın eyni soykökünə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı bağlara malik olması bu iki ölkəni həmişə bir-birinə doğma edib, sevincli, kədərli günlərdə də biri digərinin yanında olub. Ulu Öndər Heydər Əliyevin “bir millət, iki dövlət” olaraq xarakterizə etdiyi Azərbaycan-Türkiyə dövlətləri arasındakı münasibətlər bu gün hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq daha yüksək səviyyəyə çatmaqda, bir sıra sahələr üzrə isə keyfiyyətcə yeni müstəviyə keçməkdədir. Məruzəçilər həm də Türkiyə Azərbaycan qardaşlığının mədəniyyət, ədəbiyyat, təhsil və bu kimi digər sahələrə də təsirini diqqətə çatdırıblar.

Sonda xatirə şəkli çəkdirilib.

Simpozium bölmə iclasları ilə davam edib.

# Avropa İttifaqı - Azərbaycan Əməkdaşlıq Komitəsi çərçivəsində altkomitənin doqquzuncu iclası keçirilib

Belçika Krallığının Brüssel şəhərində Azərbaycan - Avropa İttifaqı Əməkdaşlıq Komitəsi çərçivəsində təsis olunmuş məşğulluq və sosial məsələlər, ictimai səhiyyə, təlim, təhsil və gənclər, mədəniyyət, informasiya cəmiyyəti və audiovizual siyasət, elm və texnologiya məsələləri üzrə altkomitənin doqquzuncu iclası keçirilib.

Azərbaycan tərəfindən Elm və Təhsil Nazirliyinin həmsədrlik etdiyi iclasda Xarici İşlər, Rəqəmsal İnkişaf və Nəqliyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi, Gənclər və İdman, Mədəniyyət, Səhiyyə nazirliklərinin nümayəndələrindən ibarət heyət iştirak edib.

İclas zamanı Azərbaycan Respublikası və Avropa İttifaqı arasında sözügedən altkomitənin əhatə etdiyi sahələr üzrə əməkdaşlığın cari vəziyyəti, gələcək perspektivləri müzakirə edilib.



# “Şəxsi inkişaf və karyera planlaşdırması”

## “Gənc Qızların Təhsilinə Dəstək” layihəsi çərçivəsində təlim





“Gənc Qızların Təhsilinə Dəstək” layihəsi çərçivəsində tələbələrin şəxsi və peşəkar inkişafına töhfə verəcək təlim proqramlarına start verilib.

İlk təlim Təhsilin İnkişafı Fondunun Layihələrin idarə olunması və biznesin inkişafı şöbəsinin əməkdaşı Rəsul Həşimov tərəfindən “Şəxsi inkişaf və karyera planlaşdırması” mövzusunda olub.

Təlimin keçirilməsində əsas məqsəd qızların karyera planlaması mövzusunda məlumatlandırılması, onlara müasir iş axtarışı bacarıqlarının aşılanmasıdır.

R.Həşimov karyera planlamasının mərhələləri, planlama üsulları və karyera inkişafının addımları barədə ətraflı məlumat verib.

Daha sonra təlim iştirakçılarının öz zəif və güclü cəhətlərini müəyyən etmələri məqsədilə strateji menecmentdə ən effektiv alətlərdən biri olan SWOT (GZİT) təhlili aparılıb.

Tədbir çərçivəsində, həmçinin təlim iştirakçıları ilə müzakirələr aparılıb və onları maraqlandıran suallar cavablandırılıb.

# QARDAŞLIĞIN, DOSTLUĞUN NÜMUNƏSİ

## “Heydər Əliyev və Azərbaycan - Türkiyə əlaqələrinin inkişafı”






İyunun 19-da Ankarada Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı Səfirliyi, Türkiyənin Qazi Universiteti və Mingəçevir Dövlət Universitetinin birgə təşkilatçılığı ilə “Heydər Əliyev İli” çərçivəsində “Heydər Əliyev və Azərbaycan-Türkiyə əlaqələrinin inkişafı” mövzusunda elmi konfrans keçirilib. Qazi Universiteti rektorluğunun Mimar Kemaleddin Salonunda baş tutan konfransda səfirliyin nümayəndələri, hər iki ali təhsil müəssisəsinin akademik və inzibati heyət üzvləri, tələbələr, magistrantlar və doktorantlar iştirak ediblər. MDU-dan AZƏRTAC-a bildirilib ki, əvvəlcə Ümummilli Liderimiz Heydər Əliyevin, Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün və şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib, Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirilib.

Konfransın açılışında MDU-nun rektoru Şahin Bayramov, Qazi Universitetinin prorektoru Yücel Gelişli və Azərbaycanın Türkiyədəki səfirliyinin birinci katibi İslam Quliyev çıxış ediblər.

Konfrans iştirakçılarını salamlayan MDU-nun rektoru Ş.Bayramov Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunan belə bir mötəbər tədbirə tərəfdaşlıq etməkdən məmnunluğunu ifadə edib və yaradılan şəraitə görə təşəkkürünü bildirib. Müasir Azərbaycan dövlətinin xilaskarı və qurucusu Heydər Əliyevin milli müstəqilliyimizin qorunması və gücləndirilməsi, ölkəmizin hərtərəfli və davamlı inkişafı naminə misilsiz xidmətlər göstərdiyini qeyd edən Ş.Bayramov hazırda müstəqillik tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanda Ulu Öndərin siyasi kursunun uğurla davam etdirildiyini vurğulayıb. Rektor bildirib ki, Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi, rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin qəhrəmanlığı, xalqımızın həmrəyliyi, qardaş Türkiyənin siyasi və mənəvi dəstəyi sayəsində 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfər məhz Heydər Əliyev siyasətinin təntənəsidir. “Bir millət, iki dövlət” anlayışı ilə Ümummilli Liderin hər zaman qardaş Türkiyə ilə əlaqələrin inkişafına və dostluq münasibətlərinin gücləndirilməsinə böyük önəm və misilsiz töhfələr verdiyini diqqətə çatdıran Ş.Bayramov dahi şəxsiyyətin əziz xatirəsinin xalqlarımız tərəfindən daim böyük hörmət, sonsuz sevgi və minnətdarlıqla yad ediləcəyini bildirib. Qarşılıqlı əlaqələrin inkişafında elm və təhsil sahəsinin önəmindən danışan rektor növbəti illər üçün hər iki qardaş ölkənin inkişaf strategiyasının əməkdaşlıq baxımından yeni imkanlar qazandıracağını, universitetlərin hərəkətverici rolunu və məsuliyyətini daha da artıracağını qeyd edib. Ş.Bayramov Qazi Universiteti ilə işbirliyinin uğurla davam etdiyini vurğulayıb, elmi tədbirin təşkilində dəstəyi və əməyi olanlara təşəkkürünü bildirib.

Qazi Universitetinin rektoru Musa Yıldızın salamlarını çatdıran bu ali təhsil müəssisəsinin prorektoru Yücel Gelişli birgə elmi konfransın əsas məqsədindən və önəmindən danışıb. Ulu Öndər Heydər Əliyevin qlobal liderlik keyfiyyətlərinə malik olduğunu vurğulayan prorektor görkəmli dövlət xadiminin çoxşaxəli, zəngin həyat və fəaliyyətində Türk dünyasının xüsusi və mühüm yerə malik olduğunu diqqətə çatdırıb. Bu il, həmçinin Türkiyə Respublikasının yaranmasının 100 illiyinin tamam olduğunu bildirən Y.Gelişli hər iki yüzilliyin sevincini özündə ehtiva edən belə bir tədbirə Qazi Universitetinin ev sahibliyi etməsindən məmnunluğunu ifadə edib. İki universitet arasında əməkdaşlığın vacibliyindən danışan Y.Gelişli MDU və Qazi Universiteti arasında müntəzəm olaraq təşkil edilən ortaq konfransların işbirliyinin inkişafına əhəmiyyətli töhfə verdiyini deyib, təşkilatçılara və məruzəçilərə təşəkkürünü ifadə edib.

Ölkəmizin Türkiyədəki səfiri Rəşad Məmmədovun salamlarını çatdıran səfirliyin birinci katibi İ.Quliyev qardaş ölkələrin universitetləri arasında əməkdaşlığın inkişafından bəhs edib və MDU-nun bu sahədə aktivliyini vurğulayıb. Dünyaşöhrətli siyasətçi, Ulu Öndər Heydər Əliyevin titanik və misilsiz fəaliyyəti ilə xalqımızın xilaskar lideri və Ümummilli Lideri zirvəsinə yüksəldiyini qeyd edən İ.Quliyev hazırda dahi şəxsiyyətin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın nəhəng uğurlara və əzəmətli qələbələrə imza atdığını bildirib. Ümummilli Liderin zəngin irsinin öyrənilməsi və təbliğinin önəmindən bəhs edən İ.Quliyev “Heydər Əliyev İli” çərçivəsində səfirliyin bir çox tədbirlərə dəstək göstərdiyini söyləyib. Hər iki universitetin bu istiqamətdə fəaliyyətlərə töhfələrinə görə təşəkkürünü bildirən İ.Quliyev konfransın işinə uğurlar arzulayıb.

Açılış nitqindən sonra Qazi Universitetinin prorektoru tərəfindən MDU rektoruna plaket verilib. Eyni zamanda, MDU rektoru tərəfindən Qazi Universitetinin prorektoruna və konfransın məruzəçilərinə xatirə hədiyyələri təqdim olunub.

Sonra konfrans Qazi Universitetinin professoru Alev Çakmakoğlu Kurunun moderatorluğu ilə panellə davam edib. Paneldə MDU alimlərindən dosent Esmira Cəfərova “Heydər Əliyev və “Bir millət, iki dövlət” anlayışı” və dosent Asim Məmmədov “Heydər Əliyevin Türk dünyasının birliyinə töhfələri”, Qazi Universitetinin alimlərindən professor İsmet Çetin “Heydər Əliyev dönəmi və Türkiyə-Azərbaycan mədəni əlaqələri” və professor Alev Çakmakoğlu Kuru “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir” və “Bir millət, iki dövlət” sözlərinin Türk sənətində izləri” mövzularında məruzələrlə çıxış ediblər.

## “Azərbaycan və Türkiyə: Bir millət, iki dövlət, tək yumruq”

### MDU-nun tərəfdaşlığı ilə Ankarada elmi konfranslar keçirilib




İyunun 20-də Ankarada Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı Səfirliyi, Ankara Hacı Bayram Veli Universiteti (AHBVU) və Mingəçevir Dövlət Universitetinin (MDU) birgə təşkilatçılığı ilə “Heydər Əliyev İli” çərçivəsində “Azərbaycan və Türkiyə: Bir millət, iki dövlət, tək yumruq” mövzusunda elmi konfrans keçirilib. AHBVU-nun ev sahibliyi ilə baş tutan konfransda səfirliyin nümayəndələri, hər iki ali təhsil müəssisəsinin akademik və inzibati heyət üzvləri, tələbələr, magistrantlar və doktorantlar iştirak ediblər.



MDU-dan AZƏRTAC-a bildirilib ki, konfrans Ümummilli Lider Heydər Əliyevin, Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün və şəhidlərimizin əziz xatirələrinin bir dəqiqəlik sükutla yad edilməsi, Azərbaycanın və Türkiyənin Dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb.

Konfransın açılışında MDU-nun rektoru Şahin Bayramov, AHBVU-nun prorektoru Orhan Kurtoğlu və Azərbaycanın Türkiyədəki səfirliyinin birinci katibi İslam Quliyev çıxış ediblər.

Konfrans iştirakçılarını salamlayan AHBVU-nun prorektoru O.Kurtoğlu Türk dünyasının öndər şəxsiyyətlərindən olan Heydər Əliyevin əziz xatirəsinə həsr olunan belə bir ortaq konfransa ev sahibliyi etməkdən məmnun olduğunu bildirib. Uzaqgörən və qətiyyətli siyasəti, parlaq ideyaları, türk xalqlarının dəyərləri və ənənələrinə bağlılığı ilə Heydər Əliyevin Azərbaycan-Türkiyə əlaqələrinin inkişafına əhəmiyyətli töhfələr verdiyini qeyd edən prorektor, hazırda Azərbaycanla olan münasibətlərin digər ölkələrdən tam fərqləndiyini və ən yüksək səviyyədə inkişaf etdiyini bildirib. Çıxışında 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbəni vurğulayan O.Kurtoğlu qeyd edib ki, Qarabağ Zəfəri ilə xalqlarımız gücünü bütün dünyaya nümayiş etdirdi. MDU ilə əməkdaşlığın uğurla davam etdiyini bildirən prorektor, səfirliyin və hər iki tərəfdaş universitetin işbirliyi çərçivəsində keçirilən ortaq konfransın təşkilatçılarına və məruzəçilərinə təşəkkür edib.

MDU-nun rektoru Ş.Bayramov çıxışında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Türkiyədə tərəfdaş AHBVU-da keçirilən birgə elmi konfransda iştirakdan məmnunluğunu ifadə edib. Azərbaycanın dövlət müstəqilliyinin əbədiləşdirilməsi və sağlam əsaslar üzərində davamlı gücləndirilməsinin Ulu Öndərin müstəsna xidmətlərindən olduğunu qeyd edən Ş.Bayramov bildirib ki, hazırda tarixinin ən qüdrətli dövrünü yaşayan və şanlı zəfərlərlə dolu ən şərəfli səhifələrini yazmaqda davam edən müasir Azərbaycan Ümummilli Liderimizin şah əsəridir. Dahi şəxsiyyətin “Mənim üçün öz canımdan, öz qanımdan artıq Azərbaycanın müstəqilliyini qorumaq, onu saxlamaq, onu əbədi etməkdir” kəlamını səsləndirən rektor əbədiyaşar liderin bütün ömrünü canından çox sevdiyi Azərbaycanın parlaq gələcəyinə və xalqının rifahına həsr etdiyini vurğulayıb. Diqqətə çatdırıb ki, Ümummilli Liderimizin ideyalarına və siyasi kursuna sadiqliyini ifadə edən Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə edilən nəhəng uğurlar, tarixi qələbələr ölkəmiz üçün bu siyasi xəttin alternativsizliyini bir daha nümayiş etdirir.

Ulu Öndərin Azərbaycan-Türkiyə əlaqələrinə hər zaman “Bir millət, iki dövlət” kontekstində yanaşdığını qeyd edən Ş.Bayramov dahi şəxsiyyətin bu münasibətlərin hərtərəfli inkişafına misilsiz töhfələr verdiyini bildirib. Vurğulayıb ki, hazırda qardaşlıq bağlarımızın, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, “Bir millət, iki dövlət, tək yumruq” olaraq daha da güclənməsi və strateji müttəfiqlik səviyyəsinə yüksəlməsi olduqca qürurvericidir. Yaradılmasının ikinci yüzilliyinə qədəm qoyan Türkiyə Cümhuriyyətində inşasına başlanılan “Türkiyə yüz ili” strategiyasının Türk dünyasının birliyinin daha da möhkəmlənməsində mühüm rol oynayacağına əminliyini ifadə edən Ş.Bayramov bu baxımdan elm, təhsil və mədəni əlaqələrin, universitetlərarası əməkdaşlığın önəmindən danışıb. AHBVU ilə MDU arasında işbirliyinin inkişafından söhbət açan rektor tərəfdaşlığın uğurlu nəticələrinin bir nümunəsi olaraq dəyərləndirilən hazırkı konfransın təşkilində dəstəyi və əməyi olanlara təşəkkürünü bildirib.

Sonra Azərbaycanın Türkiyədəki səfirliyinin birinci katibi İ.Quliyev çıxış edərək, səfir Rəşad Məmmədovun salamlarını çatdırıb və qardaş ölkələrin tərəfdaş universitetləri ilə birgə təşkil olunan elmi konfransda iştirak etməkdən məmnunluğunu ifadə edib. Səfirliyin dəstəyi və təşkilatçılığı ilə “Heydər Əliyev İli” çərçivəsində Türkiyədə çoxsaylı tədbirlərin keçirildiyini diqqətə çatdıran birinci katib AHBVU və MDU-nun timsalında Azərbaycan və Türkiyə universitetlərinin bu sahədə birgə səylərini müsbət qiymətləndirib. Müasir Azərbaycanın memarı, xilaskar lideri, Ulu Öndər Heydər Əliyevin zəngin və çoxşaxəli fəaliyyətinin Türk dünyası üçün əhəmiyyətindən bəhs edən İ.Quliyev Azərbaycan və Türkiyə arasında qardaşlıq bağlarının güclənməsində dahi şəxsiyyətin misilsiz rolundan danışıb. Hazırda Azərbaycan-Türkiyə münasibətlərinin daha yüksək səviyyəyə çatdığını qeyd edən İ.Quliyev güclü Türkiyənin bütün Türk dünyası üçün mühüm önəm kəsb etdiyini vurğulayıb. Qardaş ölkələrin çətin zamanlarda hər zaman bir-birinin yanında yer aldığını söyləyən səfirliyin birinci katibi, Azərbaycan və Türkiyənin artıq “Bir millət, iki dövlət, tək yumruq” olduğunu bildirib. Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyini və Türkiyə Cümhuriyyətinin yaranmasının 100 illiyini böyük təntənə ilə qeyd etdiyimiz bir dövrdə tədbirin uyğun bir zamanda təşkil edildiyini bildirən İ.Quliyev konfransın işinə uğurlar arzulayıb.

Daha sonra konfrans AHBVU-nun prorektoru, professor Orhan Kurtoğlunun moderatorluğu ilə paneldə davam edib. Paneldə MDU alimlərindən Asim Məmmədov və Günel Yunusova, AHBVU alimlərindən Fırat Purtaş və Nasrullah Uzman məruzələrlə çıxış ediblər. Məruzələrdə Azərbaycan-Türkiyə münasibətlərinin tarixindən, ikitərəfli əlaqələrin inkişafında Heydər Əliyevin misilsiz xidmətlərindən, Ulu Öndərin türk xalqlarının ədəbiyyatının inkişafına töhfələrindən, Qarabağ Zəfərinə qədər və sonrakı dövrlərdə qarşılıqlı əlaqələrin vəziyyəti və inkişaf perspektivlərindən bəhs edilib.

Məruzələr iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Panel müzakirələrdən sonra xatirə hədiyyələri təqdim edilib.

# Elmlə sənətin ucalığında

## Mahirə Nağıqızının yaradıcılığında Vətən məhəbbəti sonsuz və sərhədsizdir

Müasir poeziyamızın və elmimizin ən uca simalarından biri Mahirə Nağı qızı Hüseynovadır. Mahirə Hüseynova həm gözəl pedaqoq, həm istedadlı şairə, həm də vətənpərvər ziyalı, zəhmətkeş alimdir. Mahirə xanım öz şəxsi keyfiyyətlərində, əməli fəaliyyətində elmlə sənətin ən mükəmməl vəhdətini yaratmış şəxsiyyətlərdəndir. Onun yaradıcılıq aləmində elm və ədəbiyyat biri digərini güzəştə getməyəcək püxtəliyə malikdir. Filologiya elmləri doktoru, professor, Prezident təqaüdçüsü Mahirə Hüseynova Azərbaycanın ziyalılar yurdu olan Naxçıvanda dünyaya göz açıb. Hətta gözəl bir pedaqoq kimi “İlin ən yaxşı müəllimi” adını alıb, Azərbaycan Respublikasının “Qabaqcıl təhsil işçisi” döş nişanı ilə təltif edilib. Alim kimi ana dilimizin tədqiqi sahəsində çoxsaylı qiymətli əsərlər ərsəyə gətirib. Elm sahəsindəki xidmətlərinə görə “İlin alimi” Media mükafatını alıb. Çoxsaylı monoqrafiya, kitab və məqalələrin müəllifi olan Mahirə xanım, öz sözlərilə desək, “öyrədənlərin öyrədənidir”.



Mahirə Hüseynova Azərbaycan elminin inkişafına xidmət edən çox sanballı, ağır alimlərdən biridir. Onun dilçilik sahəsində apardığı tədqiqatlar və çap etdirdiyi əsərlər mühüm yenilikləri və verdiyi töhfələrilə səciyyəvidir. Alim 2012-ci ildə uğurla müdafiə etdiyi “Həsən Mirzəyevin yaradıcılığında filologiya məsələləri” mövzusunda dissertasiya işi ilə filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. Alimin müxtəlif mövzuları əhatə edən 26 kitab, monoqrafiya, dərslik, metodik vəsait və s. kimi əsərləri onun yaradıcılıq əhatəsini və elmi maraq dairəsini təzahür etdirir. “Ulu Öndərimizin natiqlik məharəti”, “Ulu Öndərimizin natiqlik məharəti xalqımızn ən böyük sərvətidir”, “Missiya”, “Heydər Əliyev və Azərbaycan dilinin inkişaf konsepsiyası” (S.Sadiqova ilə birlikdə) kimi əsərlərində Azərbaycan xalqının Ümummilli Lideri, fenomenal şəxsiyyət Heydər Əliyevin nəsillərə örnək olan həyatı və misilsiz xidmətləri milli düşüncəli alim baxışı ilə əhatəli şəkildə təqdim olunmuşdur. M.Hüseynovanın böyük zəhmətlə ərsəyə gətirdiyi “Həsən Mirzəyev və Azərbaycan dilində feil”, “Həsən Mirzəyevin yaradıcılığında filologiya məsələləri”, “Muxtar Hüseynzadə və Azərbaycan dilinin morfologiyası”, “Əbdüləzəl Dəmirçizadə və Azərbaycan dilinin fonetikası”, eləcə də “Alim təfəkkürünün itiliyi”, “Dərdi dərin Həsən Mirzə” kimi əsərlərində Azərbaycan elminin üç ağır sütununu təşkil edən görkəmli alimlərimiz və onların elmimizi zənginləşdirən yaradıcı fəaliyyətlərindən bəhs edilmişdir.

Müəllimimiz və görkəmli alimimiz olan Mahirə xanım Hüseynovanın elmi tədqiqat və yaradıcılıq əhatəsi daha da genişlənərək Azərbaycan dilçiliyinin ən aktual, problematik sahə və məsələlərini əhatə etmiş, çoxsaylı elmi əsərlərin ərsəyə gəlməsilə nəticələnmişdir. “Aşıq və el şairlərinin fonopoetikası”, “XIX-XX əsrlər Azərbaycan aşıq və el şairlərinin yaradıcılığında onomastik vahidlərin linqvopoetikası (Dərələyəz mahalı üzrə)”, “Müasir Azərbaycan dili: Aşıq və el şairlərinin yaradıcılığında dialektizmlərin öyrədilməsinə dair (Dərələyəz mahalı üzrə)”, “Aşıq və el şairlərinin leksikası”, “Aşıq və el şairlərinin üslubi frazeologiyası (monoqrafiya)”, “Aşıq və el şairlərinin üslubi sintaksisi”, “Müasir Azərbaycan dili: Punktuasiya məsələləri (dərs vəsaiti), “Aşıq və el şairlərinin üslubi morfologiyası”, “Aşıq və el şairlərinin poetikası”, “Üslubi morfologiya”, “Müasir Azərbaycan dili: Aşıq və el şairlərinin yaradıcılığının dil, üslub xüsusiyyətləri (Dərələyəz mahalı üzrə)”, “XIX-XX əsrlər Azərbaycan aşıq və el şairlərinin əsərlərinin linqvistik təhlili (dərs vəsaiti)”, “Azərbaycan dilinin yemək və içki adlarının tarixi-etimoloji lüğəti”, “Dilin elmi və estetik problemləri” kimi çap olunmuş çoxsaylı əsərləri elmimizə qazandırdığı töhfələrilə diqqəti cəlb etməkdədir. Alim çox məharətlə Azərbaycan xalqının bütün mənəvi mədəniyyəti, dəyərləri və mirasını qarşılıqlı elmi-tədqiqat müstəvisində birləşdirmiş, olduqca ciddi əhəmiyyət kəsb edən nəticələrlə zəngin monoqrafiyalar ortaya qoymuşdur. Əslən Qərbi Azərbaycanımızdan olan, öz ailə taleyi ilə xalqımızın erməni zülmü ilə yaşanmış deportasiya və didərginlik həyatını sürməyə məhkum edilmiş bu görkəmli elm adamımız yaradıcılığı və tədqiqatlarında da bu həsrətin vətəndaşlıq borcuna çevirdiyi birlik və bütövlük qayəsini mövzularında reallaşdırmış, Qərbi Azərbaycanımızın folklor, aşıq mühiti, el sənətkarlarının yaradıcılığı zəminində ana dilimizin bir sıra məsələlərini ədəbi dil tədqiqatları ilə bir məntiq müstəvisində bağlamağa nail olmuşdur.

Mahirə Nağıqızı həm də istedadlı, təbli bir şairədir. Elmi səriştəsi ilə sənətkarlıq səriştəsi bir-birini tamamlayaraq onu ustad şairə kimi söz aləminə tanıtmış, yaradıcılığını “haqqa çağıran söz” (İ.Həbibbəyli) olaraq yoğurmuşdur. Şairə “Mənim anam”, “Su at dalımca, ana”, “Ana sevgisindən doğan nəğmələr”, “Yaşadacaq anam məni”, “Ana kəndim Xalxalım”, “Ömrün çıraqdır sənin”, “Sözün hikməti”, “Analı dünyam”, “Haqqa çağıran səs”, “Bayatılar”, “Bayatılar və üç şeir”, “Ruhuna beşiksə, tanı, Vətəndir”, “Salam olsun”, “Sözün daş nağılı” kimi bədii yaradıcılıq əsərləri, şeir kitabları ilə geniş oxucu kütləsi tərəfindən sevilmişdir. Mahirə Nağıqızı bir şairə kimi istedadla ərsəyə gətirdiyi əsərlərinə görə “Qızıl qələm” mükafatı almışdır.

Söz var su kimidir, lətafətilə, şırıltısı ilə axıb insanı özünə məftun edir, söz var daş kimidir, qaya ağırlığı daşıyır. Müasir ədəbi prosesdə öz qələmi və imzası ilə tanınmış Mahirə Nağıqızının şeriyyəti də məhz belədir: bəzən su kimi axıcı, bəzən də daş kimi ağır. Mahirə Nağıqızının qəlbinin zənginliyi, ruhunun dərinliyi, sözünün qüvvəti və əlvanlığı, məhəbbətinin məğzi, məzmunu və gücü bütün tamlığı ilə sözündə, bədii irsində əksini tapıb. Söz Tanrının bütün qüdrətini əks etdirdiyi kimi, bəndələrinin də qüvvətini özündə ehtiva edir. Şairə Mahirə Nağıqızının yaradıcılıq irsi mövzu etibarilə şaxəli, rəngarəng və əhatəlidir. Habelə yaradıcılığı üslub püxtəliyi, ifadə gözəlliyi, dil zənginliyi baxımından da özünəməxsus və mahiranədir. Şairə M.Nağıqızının bədii irsində ANA mövzusu başlıca yerdə gəlir, hər sözünün başında durur, yaradıcılığında əzəmətli bir obraz kimi canlanır. İstər Vətən, istərsə də bizi dünyaya gətirən və vətənlə bağlayan ana məhəbbəti Mahirə Nağıqızının bütün yaradıcılığının fövqündə dayanır:

*Atamla yanaşı daş qaldırardı,*
*Deyərdi bu  daşlar ocaq daşıdı.*
*Bezmədi, qəlbində nə gücü vardı,*
*Anam sinəsində ocaq daşıdı.*

Şairə ana məhəbbətindən, ana nəvazişindən məharətlə söz açır. Bütün analarımızın simasını, həyatını və s. şairə yaratdığı möhtəşəm və əzəmətli ana obrazında canlandırıb. “Çöllərdə yavanlıq axtaran”, “daş əllərilə özünə sığal verməyə utanan və bu sığala yadırğayan”, “bütün gəlinliyini corab toxuyub, paltar yamayıb, çörək bişirib, ev təmizləyən” saçı süpürgəli, əli qabar və daş, “yalana, harama uymayan ərilə öyünən”, “daşı daş üstə qoyub, amma ürəyindən daş asmayan”, “ocaq daşı deyə sinəsinə qaldırdığı hər daşla ocaq daşıyan” möhtəşəm, əzəmətli, fədakar bir ANA obrazı, siması canlandırılıb misra-misra, söz-söz.

Hər əldə bir ayrı dad olduğu kimi, hər qələmdə də bir ayrı məharət var. Hər qələm öz qəlbinin, hissinin söz duyumu və dadını varaqlara tökür, sözdən mətah ortaya qoyur. Mahirə Nağıqızının şeriyyətinin elə bir mərhəmliyi, məlhəmliyi, qəlbəyaxınlığı var ki, bu qədər canayaxınlığın sirri  haqqında düşünməyə bilmirsən. Mahirə xanımın şeir dilində ana dilimizin qanadlı sözlər xəzinəsindən məharətlə istifadə edilmişdir. Şairə şeirlərindən birində yazırdı:

*Bitər sərhədlərin bu yer üzündə,*
*Qəlbimdə sərhədin nədən bitmədi?*
*Gəmisən, üzürsən eşq dənizimdə,*
*Sənə məhəbbətim, Vətən, bitmədi.*

Vətənə məhəbbətin min-min sözdə ifadə tapdığı eyniyyətin orijinal, bənzərsiz bir nümunəsi qarşımızda dayanıb. Vətən siyasi cəhətdən konkret sərhədlərlə yer tapır, lakin bir vətəndaş, insan qəlbində Vətən və ona məhəbbət sonsuz, hüdudsuz, sərhədsizdir. Şairə böyük sənətkarlıq məharətilə obrazlı ifadələrini ən orijinal, özünəməxsus ifadə tapıntıları ilə əks etdirməyə müvəffəq olub. Duyumlu, analıq, bacılıq heysiyyətinə malik istedadlı şairə Mahirə Nağıqızının dərin bir qəlb göynərtisi ilə yazdığı “Şəhid nəğməsi” şeirində ürək sızıltısı ilə milli qürur bir-birinə yovuşuq təzahür tapıb. Şairə çox məharətlə, həm də doğru ifadə edib ki:

*Burdan yavaş gedin, astadan keçin,*
*Qəbirlər titrəyər, daş dinə bilər.*
*Bir güllə gücünə sakit olanlar,*
*Bir addım səsinə diksinə bilər.*

Şairə Mahirə Nağıqızı şəhidləri “sağlığında döyüşən əsgər”, məzarlarını isə “Vətənin istehkamı” adlandırır.

Şairə “Şəhid nəğməsi”, “Son döyüşə hazır ol”, “Al bayrağım” və b. kimi şeirlərində vətən məhəbbəti, qəhrəmanlıq, fədakarlıq və vətənpərvərlik hisslərini ülviləşdirərək ifadə edir. Vətənin qeyrətli qızı Mahirə Nağıqızı “Son döyüşə hazır ol” şeirində hələ 44 günlük Vətən müharibəsindən, şanlı Zəfərimizdən əvvəl hamı kimi özünün torpaqlarımızın işğaldan azad edilməsi haqda arzularını dilə gətirib, bu döyüşü son döyüş, Şuşaya olan səfəri müqəddəs pirimizlə görüş adlandırıb:

*Azərbaycan əsgəri, yolun Şuşaya gedər,*
*O yürüşün naminə son döyüşə hazır ol!*
*İntizarda Laçındı, Zəngilandı, Kəlbəcər,*
*Pir görüşün naminə, son döyüşə hazır ol!*

Bayraq mövzusunda yazılan çoxsaylı şeirlər içərisində şairə Mahirə Nağıqızının ruhu və məhəbbəti ilə süslədiyi “Al bayrağım” adlı qiymətli şeiri nəzərdiqqəti cəlb edir. Şairə milli bayrağımızın rənglərini ruhumuzun rəng çaları kimi xarakterizə etməklə bərabər, ruhumuzu üçrəngli uca bayrağımızın dirəyi adlandırır:

*Min illərdir içimiz rənglərini göyərdir,*
*Yaşamaq haqqımızın əbədi rəmzisən bir.*
*Ruhumuz-qəlbimizdə asılan dirəyindir,*
*O dirəkdə uca dur, qal, bayrağım, dalğalan!*

Ümumiyyətlə, şairə Mahirə Nağıqızı şeriyyət dilinə çox məsuliyyətlə yanaşmış, ana dilinin bütün imkanlarından məharətlə faydalanmışdır. Çox zəngin söz tərkibi nümayiş etdirən şairə orijinal bədii məcazlar ortaya qoymuşdur. Ümumiyyətlə, şairənin yaradıcılığında Vətən sevgisi və el, torpaq, yurd məhəbbəti başlıca yer tutur. Mahirə xanımın yaradıcılığı yurd sevgisi ilə qaynayıb qovuşur. Şairə bu məhəbbəti təkcə mövzutematika ilə deyil, həm də ana yurdun doğma, şirin dili ilə, onun şəhdi-şəkəri, imkanlarından uğurla, məharətlə istifadə ilə nümayiş etdirir. Şairə çox təsiredici və orijinal cinaslar yaradır, təzadlar ortaya qoyur, bədii təkrirlər işlətməklə şeriyyətini əlvanlaşdırır, gözəlləşdirir və məna, hikmət verir. “Nazlı, nazlı”, “Niyə?”, “Əllərin”, “Qəlbində bir yuvam olsa”, “Gözəl”, “Həmən yol” və digər şeirlərində, sözün əsl mənasında, ustalıqla qurulmuş söz oyunu və məharətli dil istifadəsini görmək mümkündür. Həm də ayrıca bir bədii məziyyət burasındadır ki, istedadlı müəllif həm estetik cəhətdən gözəl, mükəmməl söz zənginliyi yaratmış, həm də mənaca dərin, hikmətli, yüksək obrazlılığa malik fikirlər ifadə etməyə müvəffəq olmuşdur. Hətta ustalıq nümayiş etdirən şairənin elə səkkizlik (gəraylı), onbirlik (qoşma) şeirlərinə rast gəlirsən ki, ustad el aşıqlarının şeirlərindən fərqləndirməyə çətinlik çəkirsən:

*Dərələyəz ağır eldi,*
*Qədrini bilənlər bildi.*
*Yol gedirsən neçə ildi*
*Eldən elə, Nazlı, Nazlı.*

Elə buna görədir ki, şairənin yaradıcılığı, üslubu, dili, eləcə də bədii-estetik cəhətdən mükəmməl əsərləri bir çox bəstəkarlarımızın da diqqətini cəlb etmiş, əsərlərinə nə qədər gözəl mahnılar bəstələnmişdir. “Azərbaycana”, “Azərbaycan”, “Ata Heydər, oğul İlham”, “Vətən”, “Layla çal, yatım, ana” (bəstəkarı S.Mansurova), “Ana”, “Ay ana”, “Dolanım”, “Balam” (bəstəkarı A.Səlimov) və başqaları bu gün də sevilə-sevilə dinlənən ən gözəl mahnılarımızdandır.

Şairənin çox təsirli məhəbbət motivli şeirləri var. Ədəbiyyatın ən başlıca mövzularından birini təşkil edən məhəbbət mövzusunda Mahirə Nağıqızının da çox orijinal nümunələri yer alıb. Ümumiyyətlə, yeni dövrün ədəbiyyatşeir yolçularından olan istedadlı şairə Mahirə Nağıqızının “Bacarmadı”, “Səninlə açılan sabah”, “Görünür”, “Sevginin dili”, “Gözlərin”, “Sən olaydın”, “Denən məni eşq aparır” və s. kimi gözəl, məhəbbət dolusu şeirləri öz oxunaqlılığı ilə diqqəti cəlb edir.

Mahirə xanım, özü demiş, “dərdilə bəxtəvər adam”, sözün ucalığına doğru yol gedən söz adamıdır. Necə deyərlər, “Mahirə gəlmədi becə dünyaya, Söz ilə yol gedər uca dünyaya”...

**Ramiz QASIMOV,**
**Zülfiyyə İSMAYIL,**
*AMEA Naxçıvan Bölməsinin əməkdaşları, filologiya üzrə fəlsəfə doktorları, dosentlər*

# Milli jurnallar “Web of Science”də

## Azərbaycan elminin dünya elminə inteqrasiyasının vacib amillərindən biri kimi

Son zamanlar dünyada olduğu kimi, ölkəmizdə də alimlərin, elmi tədqiqatçıların elmi fəaliyyətinin qiymətləndirilməsi elmmetrik meyarlar əsasında aparılır. Eyni zamanda doktorant və dissertantların fəlsəfə və elmlər doktorluğu üzrə dissertasiya işlərinin müdafiəsi üçün nüfuzlu xarici bazalarda arxivləşmiş, yüksək impakt faktorlu jurnallarda məqalə çap olunması əsas tələblərdən biridir. Buna görə, elmi tədqiqatçılar ən keyfiyyətli məqalələrini xarici ölkələrin tanınmış “Web of Science” və ya “Scopus” beynəlxalq bazalarına daxil olan jurnallarında dərc etməyə üstünlük verirlər. Bu prosesdən qazanan isə əlbəttə, həmin xarici jurnallar, itirən isə milli jurnallarımız olur. Halbuki Azərbaycan elminin dünya elminə inteqrasiya etməsinin əsas yollarından biri də ölkə daxilində nəşr olunan jurnalların kəmiyyət və keyfiyyət göstəricilərinin yüksəldilməsi, bu yolla onların beynəlxalq bazalara daxil edilməsinin təmin olunmasıdır.

Aparılan araşdırmalara görə, Azərbaycandan beynəlxalq bazalara daxil olan jurnallar çox az saydadır. Bu jurnallardan biri də baş redaktoru olduğum “Kimya Problemləri” (“Chemical Problems”) jurnalıdır. Sevindirici haldır ki, jurnalın bu günlərdə “Scopus” indeksləşmə bazasında 2022-ci il üçün impakt faktoru açıqlanıb.

Bu il üçün “Scopus” bazasının analiz parametrləri üzrə elan olunan nəticələrinə əsasən, jurnal əhəmiyyətli dərəcədə müsbətə doğru irəliləyib. Belə ki, jurnalın 2021-ci ildə 0.1 olan impakt faktoru 2022-cü il üçün 0.6 elan edilib.

“Kimya Problemləri” jurnalı 2003-cü ildən nəşr olunmağa başlayıb. İndiyə qədər jurnalda 2100-dən artıq elmi məqalə dərc olunub.

Jurnal 2009-cu ildən “Chemical Abstract” elmi informasiya bazasında referatlaşdırılır. Jurnal  dövri nəşrlərin beynəlxalq qeydiyyat mərkəzində  qeydiyyatdan keçib, 2221-8688 (print) və 2522-1655 (online) ISSN indeksini alıb.  Bundan başqa, “Kimya Problemləri” jurnalı bir çox nüfuzlu biblioqrafik, referativ bazalarda, repozitariyalarda və axtarış sistemlərində yerləşdirilib. 2016-cı il (№ 1) - 2019-cu il (№ 3) daxil olmaqla, jurnalda dərc edilən elmi məqalələr “Web of Science” bazasında indeksləşdirilib və 2018-ci ildən rəqəmsal axtarış sistemi üçün “Crossref”də qeydiyyatdan keçərək DOİ alıb.

2015-ci ildən Rusiyanın “RİNS” və “RSCI” indeksləşmə bazalarına daxildir. Qeyd etmək lazımdır ki, “RSCI” “Web of Science” platformasında “eLibrary” və “Clarivate Analytics” bazaları arasında bağlanmış müqaviləyə əsasən yaradılıb.

2021-ci ilin sentyabr ayından jurnal “Scopus” beynəlxalq indeksləşmə bazasına daxil edilib.

Onu da qeyd edək ki, “Kimya Problemləri” jurnalı Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının təsdiq etdiyi beynəlxalq nüfuzlu elmi bazalara daxil olan tövsiyə olunan jurnallar siyahısına daxildir.

““Kimya Problemləri” jurnalı bu nailiyyətə səmərəli və nümunəvi fəaliyyəti ilə nail olub”- desək, heç də yanılmarıq.

Elmi jurnalların beynəlxalq elmi bazalara daxil edilməsi məsələsinin həlli üçün redaksiya və nəşriyyatların həmin sistemlərin qəbul etdiyi seçilmə kriteriyalarına əməl etməsi tələb olunur. Araşdırmalar göstərir ki, məşhur bazaların tələblərinin əksəriyyəti elmi nəşrlərin beynəlxalq standartlarına uyğundur və bir-birindən əhəmiyyətli dərəcədə fərqlənmir.

Məlum olduğu kimi, “WOS” və “Scopus” bazalarına jurnalların seçilməsi bir sıra şərtlərdən asılıdır ki, bunlara da jurnalın keyfiyyəti, onun dünya standartlarına cavab verməsi, xüsusən ingilis dilində yayınlanması, redaksiya heyətində həm ölkə daxilində, həm də xaricdə tanınmış, akademik profil səhifələrinə malik, beynəlxalq elmi axtarış sistemlərinə çıxış imkanları olan alimlərin təmsil olunması, çapının müntəzəmliyi, ölkədaxili alimlərlə yanaşı, xarici alimlərin məqalələrinin dərc olunması və sair meyarlar daxildir. Qeyd edə bilərik ki, Azərbaycanın elmi nəşrləri bu sahədə hələ ki aparıcı xarici jurnallardan geri qalır. Amma, istisna hal kimi yuxarıda sadaladığımız məqamların hər birini “Kimya Problemləri” jurnalının fəaliyyətində görmək mümkündür.

Təəssüf hissi ilə qeyd edə bilərik ki, milli jurnallarımızın çoxu hələ ki “WOS” və “Scopus”-a daxil ola bilməyib. Beynəlxalq elmi əlaqələrinin sürətlə genişləndiyi informasiya cəmiyyəti şəraitində həmin jurnalların bəzi parametrlər üzrə qəbul olunmuş normativ beynəlxalq standartlara cavab verməməsi əsas maneə olaraq qalır. Deməli, nəşr olunan milli jurnalların beynəlxalq tələblərə uyğunlaşdırılması və beynəlxalq nüfuzlu bazalarda təmsilçiliyinin təmin edilməsi olduqca vacibdir. Unutmamalıyıq ki, “WOS” və “Scopus” bazalarında olan jurnallar mütləq şəkildə ingilis dilində yayınlanmalıdır. Lakin Azərbaycanda nəşr və jurnalların çoxu hətta elmi ictimaiyyət arasında müəyyən nüfuza malik olsa belə, məhz ingilis dilində olmadığı üçün onlar həmin bazalara düşə bilmir. Digər tərəfdən, alimlərin müəyyən hissəsinin bu dilə kifayət qədər yiyələnməməsi nəticəsində məqalələr xarici ingilisdilli jurnallarda geniş surətdə çap etdirilmir. Bəzən məqalələrin tam mətninin ingilis dilində olmaması isə xarici alimlərin bu məqalələrin nəticələri ilə tanış olmasında müəyyən çətinlik yaradır və nəticədə məqalələrə edilən istinadların sayı çox az olur.

Beləliklə, Azərbaycan elminin dünya elminə inteqrasiyasını sürətləndirmək üçün alimlərimiz və elmi mütəxəssislərin “WOS” və “Scopus” kimi nüfuzlu bazalara daxil olan xarici jurnallarda çıxış imkanlarını artırmaqla yanaşı, milli jurnalların nüfuzlu beynəlxalq elmi bazalarda təmsil olunması da zəruridir. Başqa sözlə, onların beynəlxalq bazaların tələblərinə uyğunlaşdırılması istiqamətində ardıcıl işlər aparılmalı və heç olmasa ilkin mərhələdə həmin bazalarda təmsilçiliyi üçün minimal tələblər təmin olunmalıdır. Bunun üçün mütləq respublikada elmi qurumların, təhsil müəssisələrinin təsisçiliyi ilə nəşr olunan jurnalların beynəlxalq tələblərə uyğunlaşdırılması tövsiyə yox, bir tələbə çevrilməlidir.

**Vaqif FƏRZƏLİYEV,**
*akademik, “Kimya Problemləri” jurnalının baş redaktoru*

# Elm və təhsil uğurlara, aydınlığa, ziyaya, firavanlığa imza atır

Elm və Təhsil Nazirliyinin “Azərbaycan məktəbi” jurnalının “Heydər Əliyev İli”ndə işıq üzü görən ikinci sayı Ulu Öndərin sevə-sevə səsləndirdiyi “Nə vaxta qədər ki, müəllim öyrənir, o yaşayır, nə vaxta qədər ki, müəllim yaşayır, o öyrənir...” fikri ilə yola çıxıb. Bu barədə jurnalın baş redaktoru Arzu Soltan oxuculara müraciətində qeyd edib və jurnalımızın məqsədinin bu yolda müəllimlərə, təhsil işçilərinə, elm xadimlərinə bələdçi olduğunu vurğulayıb.




2023-cü ilin 2-ci sayında alimlərimizdən Misir Mərdanovun, Elçin Əliyevin, Ramin Rzayevin, Xanmurad Abdullayevin “Universitet müəllimlərinin akademik fəaliyyətini əks etdirən göstəricilərin inteqral indeksinin ekspert təhlili”, Bakı Slavyan Universitetinin Pedaqogika və psixologiya kafedrasının müdiri, pedaqogika elmləri doktoru, professor Piralı Əliyevin və ARTİ-nin doktorantı Leyla Yadigarovanın “Universitetlərin tədqiqat fəaliyyətinin cəmiyyətin iqtisadi inkişafında rolu”, ADPU-nun kafedra müdiri, pedaqogika üzrə elmlər doktoru, professor Müseyib İlyasovun “Pedaqoji prosesdə müəllim fəaliyyətinin texnoloji istiqamətləri”, ARTİ-nin Təhsil iqtisadiyyatı və idarə olunması şöbəsinin böyük elmi işçisi İlhamə Əsədovanın “Ümumi təhsil məktəblərində maliyyə vəsaitlərinin idarə olunması”, ARTİ-nin Təhsil iqtisadiyyatı və idarə olunması şöbəsinin böyük elmi işçisi Günay Mirzəzadənin “Beynəlxalq təcrübədə təhsilin keyfiyyət göstəriciləri, təhsilin inkişafını stimullaşdıran mexanizmlər, qrant sistemi”, ATU-nun Keyfiyyətin təminatı və Öyrənmə-Öyrətmə Mərkəzinin mütəxəssisi Rasim Həsənzadənin “Ali təhsil müəssisələrində keyfiyyətin təmin olunmasında akkreditasiyanın rolu”, ARTİ-nin doktorantı, ADA Universitetinin müəllimi Gülsabah Əmirovanın, BDU-nun doktorantı, Bakı Modern Beynəlxalq Məktəbinin direktoru Sevinc Seyidovanın “Komandada fəaliyyətin tələbələrin ünsiyyət bacarıqlarının inkişafına təsiri”, sosiologiya elmləri doktoru, dosent, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, Azərbaycan Universitetinin müəllimi Səadət Məmmədovanın “Müəllim-şagird əməkdaşlığında şagirdlərin müstəqillik qabiliyyətlərinin inkişaf etdirilməsi”, filologiya elmləri doktoru, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu direktorunun müşaviri Əlizadə Əsgərlinin “Heydər Əliyev və Azərbaycan ədəbiyyatına bir nəzər”, pedaqogika üzrə fəlsəfə doktoru, ARTİ-nin Təlimin nəzəriyyəsi və metodikası şöbəsinin baş mütəxəssisi, Əməkdar müəllim Natiq Axundovun “Ümumi təhsilin inkişafına Heydər Əliyevin diqqət və qayğısı (1982-1987-ci illər)”, türk dilləri üzrə fəlsəfə doktoru, dosent, Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Elza Səmədlinin “Azərbaycanda ilk müsəlman qız məktəbinin qadınların təhsilində rolu”, Naxçıvan Dövlət Universitetinin “Pedaqogika və psixologiya” kafedrasının baş müəllimi Nübar Səfərlinin “Naxçıvanda təhsilin və pedaqoji fikrin inkişaf meylləri” məqalələri yer alıb.

Oxucularımız həmçinin gələn il 100 yaşını qeyd edəcək jurnalın bir əsrlik tarixi boyu səhifələrində dərc olunmuş məqalələrdən seçmələrlə tanış ola və Azərbaycanda pedaqoji fikrin inkişafını izləyə biləcəklər.“Azərbaycan məktəbi” jurnalının 1952-ci ilin 3-cü sayında “Pedaqoji və psixoloji məsələlər” rubrikası altında işıq üzü görmüş, pedaqoji elmlər namizədi Mərdan Muradxanovun “Dərs öyrənməyin yollarını şagirdlərə öyrətmək” başlıqlı məqaləsi 71 il əvvəl yazılsa da, gündəmdə aktuallığını saxlamaqdadır.

Əziz oxucular, “Azərbaycan məktəbi ilə öyrəndikcə yaşayanlardan, yaşadıqca öyrənənlərdən olun”.

## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti 23 L, 5-ci mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 5703 **Sifariş** 1648

**Məsul növbətçi:** Ş.Cəfərov

# Etibarsız sayılır

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2019-cu ildə Qurbanzadə Mehin Qurban qızına verilimiş C-044087 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı rayon** Quşencə kənd tam orta məktəbin IX sinfini 2000-ci ildə bitirmiş Məsimova Təranə İsmi qızına verilmiş B-373363 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Balakən rayon Humanitar və Texniki Təmayüllü Liseyi** 2020-ci ildə bitirmiş Dadayev Mahmud Vüqar oğluna verilmiş E-317410 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 248 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Atakişiyeva Fatimə Rauf qızına verilmiş A-500324 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** Afurca kənd tam orta məktəbin IX sinfini 1990-cı ildə bitirmiş Mustafayeva Ulduz Fazil qızına verilmiş A-352144 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 238 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Məmmədov Zəfər Zahir oğluna verilmiş B-012688 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Turizm və Menecment Universiteti** tərəfindən 2022-ci ildə Paşazadə Paşa Anar oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Aşağı Ağcakənd qəsəbə tam orta məktəbi 2006-cı ildə bitirmiş Bayramova Tünzalə Maksim qızına verilmiş B-337269 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes Universiteti** tərəfindən 2019-cu ildə Sultanova Elvanə Abbas qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 4 nömrəli Humanitar Təmayüllü məktəb-liseyin IX sinfini 1991-ci ildə bitirmiş Səlimova Aynur Namiq qızına verilmiş A-707121 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2001-ci ildə Abbasov Emin Nəsib oğluna verilmiş A-072482 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2013-cü ildə Babayev Rüfət Rəsul oğluna verilmiş A-015084 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 59 nömrəli Peşə Məktəbi tərəfindən 1980-ci ildə Abbasov Rasim Hüseyn oğluna verilmiş B-124432 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Göygöl şəhər** 3 nömrəli tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Musayev Xanlar Bəhrəm oğluna verilmiş A-482173 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 102 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Qasımov Orxan Mehdi oğluna verilmiş A-102978 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 2 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Məhərrəmzadə Məhəmməd Nasir oğluna verilmiş A-097733 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Dəmir yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi** (keçmiş 2 nömrəli peşə məktəbi) tərəfindən 1989-cu ildə Petrov İqor Anatoliyeviçə verilmiş B-114706 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər 1 nömrəli İdman Liseyində PHŞ-də** (277 nömrəli İdman təmayüllü tam orta məktəb) 2021-ci ildə bitirmiş Əhmədov Emil Ramil oğluna verilmiş E-357919 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 38 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş İbrahimova Aygün Aydın qızına verilmiş A-655937 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Mustafaağalı kənd tam orta məktəbi 2012-ci ildə bitirmiş İsmayılzadə Aqil Əyyub oğluna verilmiş A-156215 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes Universiteti** tərəfindən 2019-cu ildə Cabbarova Sahilə Lazım qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 223 nömrəli tam orta məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Güləliyev Vasif Zülfəli oğluna verilmiş AR-01276 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2017-ci ildə Mirzəyev Eyvaz Eldar oğluna verilmiş AT-003428 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Tatyan kənd ümumi orta məktəbin VIII sinfini 1990-cı ildə bitirmiş Əzizli Vahid Calal oğluna verilmiş A-686347 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Təzə Alvadı kənd 1 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Məmişov Asif Məmməd oğluna verilmiş A-089053 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 1 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Mehtizadə Zümrüd Vüqar qızına verilmiş A-333960 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər “Təfəkkür” Liseyini** 2005-ci ildə bitirmiş Əlirzayeva (Məhərrəmova) İlhamə Bayram qızına verilmiş B-052299 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 62 nömrəli məktəb-liseyi 2013-cü ildə bitirmiş Əlizadə Kənan Kamran oğluna verilmiş A-203433 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Kompüter Peşə Liseyi** (Rabitə və İnformasiya Texnologiyaları üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 2020-ci ildə Hacızadə İmami Oruc oğluna verilmiş AA-132389 nömrəli diplom və E-282443 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Daşdatük kənd ümumi orta məktəbin IX sinfini 1992-ci ildə bitirmiş Rzayeva Nisə Həsənəli qızına verilmiş B-782993 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Vil kənd tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Həsənova (Rəsulova) Gülabə Rəsul qızına verilmiş A-730963 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**1 nömrəli Bakı Peşə Liseyi** (Emal Sənayesi üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 2011-ci ildə Eyvazlı Orxan Həsən oğluna verilmiş BB-061944 nömrəli (diplom və attestat bir yerdə) itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Alpoud kənd tam orta məktəbi 2002-ci ildə bitirmiş Hüseynov Rəşad Faiq oğluna verilmiş A-634576 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 230 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Babayev Mikayıl Rövşən oğluna verilmiş A-515203 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zəngilan rayon** 24 nömrəli tam orta məktəbi 2002-ci ildə bitirmiş Rüstəmova Əfsanə Vaqif qızına verilmiş A-602636 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 194 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Babazadə (İbrahimova) Xəyalə Qubad qızına verilmiş B-495786 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ordubad rayon** Vənənd kənd tam orta məktəbi 2009-cu ildə bitirmiş Zeynallı Azər Əhəd oğluna verilmiş B-579882 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** II Şahsevən kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Süleymanova Aytac Fərmayil qızına verilmiş A-046530 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2014-cü ildə Kiknadze Mariya İsmayıl qızına verilmiş A-039538 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Göyçay rayon** Əli Əfəndi adına Bığır kənd 1 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Kərimova (İsgəndərova) Ramilə Nizami qızına verilmiş A-033009 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 169 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Əhmədov Zaur Saleh oğluna verilmiş 701249 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 235 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Əliyeva Tamilla Şahin qızına verilmiş E-199838 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dəniz Balıq Sənayesi Texnikumu** tərəfindən 2008-ci ildə Mərdanov Elman Adibala oğluna verilmiş BB-II-067557 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2010-cu ildə Mirzəliyeva (Quliyeva) Əfsanə Səmədağa qızına verilmiş B-194965 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 2009-cu ildə Sadıqov Vasif Ələmdar oğluna verilmiş A-152271 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**12 nömrəli Bakı Peşə Liseyi** (Emal Sənayesi üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 2014-cü ildə Daşdəmirov Orxan İntiqam oğluna verilmiş A-057996 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 10 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş İskəndərli Nərgiz Azər qızına verilmiş A-408049 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Şəhriyar kənd tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Məmmədov Həsən İlyas oğluna verilmiş A-169934 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Çökəkoba kənd tam orta məktəbi 2017-ci ildə bitirmiş Qurbanov Rəhman Nəsib oğluna verilmiş E-053203 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Turizm və Menecment Universiteti** tərəfindən 2021-ci ildə Bədəlova Ləman Fuadovnaya verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Şəki Dövlət Regional Kolleci** tərəfindən 2018-ci ildə Məhərrəmova Xədicə İsa qızına verilmiş AA-111212 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağdaş rayon** Kotavan kənd tam orta məktəbi 1995-ci ildə bitirmiş Səmədova Maya Vaqif qızına verilmiş 69 nömrəli tam orta təhsil haqqında arayış itdiyi üçün etibarsız sayılır.

**Odlar Yurdu Universiteti** tərəfindən 2004-cü ildə Əliyev Rəşad Vaqif oğluna verilmiş B-020557 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 4 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Abuşova Ülkər Mirzə qızına verilmiş E-378469 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1998-ci ildə Yaqubova Zülfiyə Ziyət qızına verilmiş A-018548 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** A.Məlikov adına 11 nömrəli Onbirillik Musiqi Məktəbin VII sinfini 2002-ci ildə bitirmiş Bədəlov (Xələfov) Rəşad Vahid oğluna verilmiş B-03746 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**14 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2000-ci ildə Xeyrullayev Nəsir Rüstəm oğluna verilmiş AB-040941 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Zərdab şəhər** 2 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Abdullayev Ramin Abdulla oğluna verilmiş 595 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 64 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Hüseynov Xaləddin Müqavyat oğluna verilmiş B-285415 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 16 nömrəli sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəbi (indiki 12 nömrəli xüsusi internat məktəbi) tərəfindən 1995-ci ildə Həsənova Elnarə Gündüz qızına verilmiş əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 212 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Əlizadə Yeganə Samir qızına verilmiş E-271976 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

# ELAN

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 noyabr 2018-ci il tarixli 507 №-li Qərarına və Azərbaycan Respublikasının elm və təhsil nazirinin 30 may 2023-cü il tarixli 3-29/3-2-320 F/2023 saylı əmrinə əsasən Cəlilabad Peşə Məktəbi və Cəlilabad Peşə Liseyi birləşdirilərək onların bazasında “Cəlilabad Dövlət Peşə Təhsili Mərkəzi” publik şəxs yaradılmışdır.

**DİREKTORLUQ**

# Kənd məktəbini Avropa platformasında tanıdan müəllim



## Aybəniz Əhədova: "Müəllimlik mənim üçün yaşanılan ömür yolunda bir işıqdır"

Onunla tanışlığım Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının (AGMA) təşkilatçılığı ilə keçirilən Gənc Müəllimlərin III Forumunda oldu. Bir kənd müəlliminin tükənməz enerjisi, öyrətmək, eyni zamanda öyrənmək istəyi, səmimi ünsiyyəti, üstəgəl peşəkarlıq və yaradıcılıq xüsusiyyətləri məndə bu təhsil işçisi ilə yaxından tanış olmaq istəyi oyatdı. Və budəfəki yazımın qəhrəmanı da məhz o – Biləsuvar rayonu R.Mikayılov adına Bəydili kənd tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyatı müəllimi, Əməkdar müəllim Aybəniz Əhədova oldu.

### Uşaqlıqdan ən böyük arzum olub ki, məni "Aybəniz müəllim" çağırsınlar

Aybəniz Babaxan qızı Əhədova 1983-cü ildə Biləsuvar (keçmiş Puşkin) rayonu Ş.Qurbanov adına şəhər 2 nömrəli tam orta məktəbi fərqlənmə attestatı ilə bitirib. Deyir ki, uşaqlıqdan ən böyük arzum olub ki, məni "Aybəniz müəllim"deyə çağırsınlar. Ailəsində hər zaman müəllimə qarşı sevgi, ehtiram görüb.

Orta təhsilini başa vurduqdan sonra uşaqlıq xəyalını- müəllim olmağı gerçəkləşdirmək üçün Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsinə daxil olur. Universitetdə təhsil aldığı illərdə tanınmış dilçilərdən, ədəbiyyatçı alimlərdən, görkəmli pedaqoqlardan bəhrələnir. Ali təhsil illərində hər zaman fəallığı, yüksək təhsil nəticələri ilə fərqlənən Aybəniz Əhədova əlaçı olduğuna görə "Nizami" təqaüdü alır.

O,1986-cı ildə respublikamızın ali məktəbləri arasında keçirilən XlV tələbə elmi konfransına dosent A.Bəşirovanın rəhbərliyi ilə yazdığı elmi işlə qatılaraq "Ən yaxşı elmi işə görə" medalı ilə təltif olunur.

### Seçimi kənd məktəbi oldu

1987-ci ildə universiteti fərqlənmə diplomu ilə bitirən Aybəniz Əhədovaya aspiranturada təhsillini davam etdirmək, ADPU-nun müəllimi olmaq təklif olunsa da o, artıq öz seçimini etmişdi. Elə həmin ildən təyinatla Biləsuvar rayonu R.Mikayılov adına Bəydili kənd tam orta məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi kimi fəaliyyətə başlayır. V-XI siniflərdə Azərbaycan dili və ədəbiyyat fənnini tədris edir. Və müəllim kimi gələcək uğurlarının başlanğıcı bu ümumi təhsil müəssisəsində qoyulur. Kəndə gələndə özünə söz verir ki, müəllimlik fəaliyyəti ilə hər kəsə sübut edəcək ki, çalışdığı peşəsində inkişaf etmək, yeniliklərə imza atmaq üçün məkan (şəhər və ya kənd) əsla fərq etməz. Önəmli olan istəkdir. Qarşıya qoyulan məqsədə çatmaq üçün isə öz üzərində daim işləməli, çalışqan və inkişafda olmalısan. Beləcə, o, qoyduğu hədəflərinə doğru pillə-pillə irəliləməyə başlayır.

"Müəllimlik təcrübəsini, şagird sevgisini, bütün əldə etdiyim nailiyyətləri məhz sadə bir kənd məktəbində qazanmışam" - deyir, Aybəniz müəllim. Dərslərini fəal-interaktiv təlim metodlarından istifadə edərək quran təcrübəli pedaqoq müəllimlik fəaliyyəti boyu bir sıra uğurlu işlərə imza atır.

### Beynəlxalq layihələr və qazanılan təcrübə

Aybəniz müəllimin fəaliyyətinə yaxından bələd olduqca onun bir məktəbə sığmayan işlərinə heyran qalmamaq mümkün deyil. Yaradıcı müəllim 2020-ci ildən "e Tvinninq" layihəsi çərçivəsində bir sıra işlər həyata keçirməyə başlayıb. Layihəəsaslı öyrənməyə önəm verərək indiyə qədər 15 layihədə iştirak edib. Bunlardan 6-nın müəllifi də elə məhz özüdür. "e Tvinninq"in əsas məqsədinin pedaqoji işçilər arasında ünsiyyəti artırmaq, əməkdaşlıq əlaqələrini genişləndirmək, digər ölkələrdən olan müəllimlər ilə müxtəlif layihələr icra etmək üçün şərait yaratmaq olduğunu söyləyən Aybəniz müəllim bu layihənin ona ideyalarını həyata keçirməkdə, arzularını reallaşdırmaqda gözəl bir vasitəyə çevrildiyini deyir: "eTvinninq"lə pedaqoji bacarıqlarımızın artırılması istiqamətində müxtəlif beynəlxalq səviyyəli təlim və kurslarda iştirak edir, mükafat və sertifikatlara layiq görülürük. Bu, bizə arzuladığımız layihələri maneəsiz olaraq həyata keçirmək və ya hansısa bir layihəyə qoşulmağımıza, yaxud da yeni layihə yaradıcısı olaraq fəaliyyət göstərməyimizə geniş imkanlar yaradır. Qürurla deyə bilərəm ki, layihələrim həm Milli Keyfiyyət nişanına, həm də Avropa Keyfiyyət nişanına layiq görülüb. Bir Azərbaycan müəllimi olaraq mənim və eləcə də şagirdlərim üçün bundan böyük fəxr ola bilməz. Hazırda daha iki layihəni bitirib mükafata təqdim etmək ərəfəsindəyik. ESEP layihələrində Türkiyənin, Avropanın nüfuzlu məktəb və müəllimləri ilə birlikdə çalışırıq. Bu da şagirdlərimizin dünyagörüşünün hərtərəfli formalaşmasında, digər ölkələrin müəllimləri ilə təcrübə mübadiləsinin aparılmasında əhəmiyyətli rol oynayır".


6
Education Jagat
16 - 31 March 2023
Education Jagat International Issue 1 April 2023
Japan seeks to promote STEM careers to women
Russia: int'l student numbers 'grow' despite the war
6 of 6

Aybəniz müəllim 2022-ci ilin 2-3 iyul tarixlərində İstanbul şəhərində "Uluslararası STEM Öğretmenler" konfransında öz layihəsi ilə iştirak edərək beynəlxalq dərəcəli sertifikata layiq görülüb.



Yaradıcı müəllimin uğurları bununla bitməyir. Belə ki, beynəlxalq təcrübəyə malik pedaqoq 2022-ci ildə "AKS EDUCATION AWARD-"ın keçirdiyi müsabiqədə dünyanın 110-dan artıq ölkəsinin müəllimləri arasından seçilərək "Qlobal Teacher" adını alıb və Azərbaycan üzrə 2022-ci ilin yeganə qalibi olub.

Aybəniz Əhədova Hindistanın "Education Jagat" qəzetində Azərbaycandan olan bir müəllim kimi həyata keçirdiyi layihələrlə bağlı öz təcrübəsini, dərslərini paylaşıb. Dünya ölkələrinin müəllimlərinin gördükləri işlər, keçdikləri dərslərlə bağlı təcrübələrinin paylaşıldığı, ixtiralar haqqında məlumatların dərc olunduğu bu mətbu orqanının növbəti saylarında isə təhsil işçiləri azərbaycanlı pedaqoqun "Bütün yollar Romaya aparır", "Ədəbiyyat və incəsənət" mövzularında daha iki layihəsi ilə tanış olacaqlar.

Cari ilin 8-9 iyul tarixlərində İstanbulda keçiriləcək beynəlxalq STEAM konfransına dəvət alan Aybəniz müəllim bu tədbirə maraqlı bir mövzu ilə qatılacağını söyləyir.

Təcrübəli müəllim daim öz üzərində işləyən, axtarışda olan bir təhsil işçisidir. O, bilik və bacarığını gənc müəllimlərdən əsirgəməyən pedaqoqlardandır.

Aybəniz Əhədova dövlət ümumi təhsil müəssisələrində çalışan təhsilverənlərin sertifikatlaşdırılması prosesinə hazırlıq məqsədilə Elm və Təhsil Nazirliyinin və Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının təşkil etdiyi təlimlərdə mentor kimi respublikamızın müxtəlif regionlarından olan müəllimlərinə təlim keçir. O, MİE-nin əməkdaşı, İTE təlimçisidir.

### 36 illik müəllimlik fəaliyyəti

36 illik müəllimlik fəaliyyəti... Dönüb geriyə baxanda o illərin hər birində qazanılan uğurların arxasında öyrənmək, axtarışda olmaq, ölkəmizin, eləcə də dünya təhsilində baş verən proseslərdən xəbərdar, axtarışda, eyni zamanda yeniliklərə açıq olmaq və onu tədris prosesinə uğurla inteqrasiya etmək və sadalamadığımız daha nələr-nələr durur...

Aybəniz Əhədova şagirdlərini sevən, onlarla qürur duyan bir pedaqoqdur. Elə şagirdləri də nailiyyətləri ilə doğma müəllimlərini hər zaman sevindirir.

Bilik yarışlarının bu gün neçə-neçə istedadlı, yüksək hazırlığa malik gənclərimizin üzə çıxarılmasındakı rolundan söz açan müəllim hər bir şagirdinin əldə etdiyi nailiyyəti ilk növbədə onun təhsil aldığı məktəb, eləcə də uğurunda əməyi olan müəllimi üçün başucalığı olduğunu qeyd edir. Onun dərs dediyi şagirdlər respublika fənn olimpiadalarında, inşa müsabiqələrində, yarışmalarda fəal iştirak edərək müvafiq yerlərə layiq görülürlər.

Aybəniz müəllim istər pedaqoji fəaliyyəti, istərsə də yaradıcılıq bacarığı ilə hər zaman diqqətdə olub. Bildirir ki, əməyinə verilən qiymət onu daha da ruhlandırır. O, 2003-cü ildə "İlin ən yaxşı mühazirəçi müəllimi" seçilib.

2018-ci ildə təhsilin inkişafındakı xidmətlərinə və gənc nəslin təlim-tərbiyəsi sahəsində yüksək nailiyyətlər əldə etdiyinə görə Təhsil Nazirliyinin Fəxri fərmanı ilə təltif olunub. Həmin ildə keçirilən müəllimlərin XV qurultayına nümayəndə seçilib.

2018-ci ildən Dövlət İmtahan Mərkəzinin marker müəllimidir. Artıq neçə illərdir ki, abituriyentlərin işinin qiymətləndirilməsində iştirak edir.

Uzunillik təcrübəyə malik, peşəkar müəllim ölkə təhsilinin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 3 oktyabr 2019-cu il tarixli Sərəncamına əsasən "Əməkdar müəllim" fəxri adına layiq görülüb. Dövlət başçısı tərəfindən ali mükafata layiq görülən təhsil işçisi bu adı şərəf və qürur hissi ilə daşıyır.

### Pedaqoji fəaliyyətinin ən böyük dəyəri...

Aybəniz müəllimin yetirmələri bu gün ölkəmizin müxtəlif sahələrində ixtisaslı kadrlar kimi fəaliyyət göstərirlər: "Vaxtilə dərs dediyim şagirdlərimin hər biri mənə əzizdir. Lakin ən qürurvericisi odur ki, öz ixtisasım üzrə davamçılarım var. Demək olar ki, Biləsuvarın bir çox məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimləri olan yetirmələrim öz savadına, intellektinə, çalışqanlığına görə seçilir. Bu gün öz çalışdığım məktəbdə belə vaxtilə dərs dediyim şagirdlərimlə iş yoldaşıyam. Bunlar həyatımın rəngarəng sevinc çalarlarıdır. Bayram günlərində mənə təbriklər gələndə gözlərim dolur. Türkiyə, Almaniya, İsveçrə, Kanada, Rusiya - bir sözlə, dünyanın müxtəlif ölkələrində çalışan şagirdlərim mənə "Əziz müəllimim, əziz anam" sözlərini yazır. Bu xoş sözlər, yetirmələrimin uğurlu iş həyatları, layiqli vətəndaş olaraq formalaşmaları mənim müəllimlik fəaliyyətimin ən böyük dəyəridir.

Əslində çalışmaq istəyi olan müəllim üçün şəhər və ya kənddə fəaliyyət göstərməsinin heç bir fərqi olmamalıdır. Əsl fədakarlıq elə şəraitsiz yerdə çalışmaq və öz fəaliyyəti ilə bir addım öndə getməyi bacarmaqdır. Yenilik varsa, müəllim öyrənməlidir. Mən öyrənməyi və öyrətməyi çox sevirəm. Şagirdlərimin uğurları ilə fəxr edirəm və bu, mənə stimul verir. Hər bir kəsin həyatında ən önəmli yeri valideynindən sonra ona dərs demiş müəllimləri tutur. Müəllim ürəklərdə özünə əbədi taxt quran peşə sahibidir. Bundan gözəl nə ola bilər ki?

Fəxr edirəm ki, müəllim kimi fəaliyyət göstərdiyim Biləsuvar rayonunun Bəydili kənd tam orta məktəbinin adı Avropanın bir sıra ölkələrinin məktəbləri ilə yanaşı çəkilir. Reallaşdırdığım layihələr dünya müəllimləri tərəfindən maraqla qarşılanır".

### Peşəsinə olan sevgisi övladlarına da keçib

"Ana kimi də çox xoşbəxtəm"- deyir qəhrəmanım. Həyat yoldaşı da müəllimdir, ixtisasca riyaziyyatçıdır.

Aybəniz müəllim öz övladlarına da dərs deyib. Böyük qızı iqtisadçı ixtisasını seçsə də, digər iki qızından biri coğrafiya, o biri isə ingilis dili müəllimidir. Bir qızı onunla birlikdə eyni məktəbdə, digər qızı isə həyat yoldaşının çalışdığı ümumi təhsil müəssisəsində müəllim kimi fəaliyyət göstərir. Oğlu Almaniyada həkim-rezidentdir.

### O müəllim xoşbəxtdir ki...

Bəli, müəllimlik Aybəniz Əhədova üçün yaşanılan ömür yolunda bir işıqdır. O müəllim xoşbəxt müəllimdir ki, onun saldığı işıqla addımlayaraq həyatda öz layiqli yerini tutmağı bacaran yetirmələri var. Və Aybəniz müəllimin sözləri ilə desək: "İnanmıram ki, bu işığı fərq edən şagird onu unutsun... İşıq olaq".

**Samirə KƏRİMOVA**



# "Heydər Əliyev: Azərbaycanda elm və təhsil"

## III Şagird Respublika elmi-praktik konfransı keçirilib

İyunun 20-də S.C.Pişəvəri adına Respublika humanitar fənlər gimnaziyasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev: Azərbaycanda elm və təhsil" mövzusunda III Şagird Respublika elmi-praktik konfransı keçirilib.

Konfransın təşkilatçıları Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, S.C.Pişəvəri adına Respublika humanitar fənlər gimnaziyası, AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, Elm və Təhsil Nazirliyi akademik Həsən Əliyev adına Coğrafiya İnstitutu, Bakı Avrasiya Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba və Şamaxı filialları, Quba şəhərində Soyqırımı Memorial Kompleksi, S.Bəhlulzadə adına Xarici dillər təmayüllü gimnaziya, Fizika-riyaziyyat və informatika təmayüllü Respublika liseyi və Şirvan kimya-biologiya təmayüllü liseydir.

Konfransın açılış mərasimində Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Qarabağ döyüşləri şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Açılış tədbirində çıxış edən S.C.Pişəvəri adına Respublika humanitar fənlər gimnaziyasının direktoru İlqar Talıbov 2023-cü ilin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Heydər Əliyev İli" elan olunduğunu xatırladaraq, bununla əlaqədar gimnaziyada bir sıra yarışlar, müsabiqələr keçirildiyini və "Heydər Əliyev: Azərbaycanda elm və təhsil" mövzusunda III Şagird Respublika elmi-praktik konfransının da bu tədbirlər sırasında önəmli yer tutduğunu bildirib. İ.Talıbov gimnaziyada fəaliyyət göstərən "Kiçik Akademiya"nın fəaliyyətindən danışaraq, şagirdlərin beynəlxalq tədbirlərdə uğurlarını qeyd edib və onların elmin başlanğıc yolunda uğurla addımladıqlarını vurğulayıb.

Elm və Təhsil Nazirliyi akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun baş direktoru, coğrafiya elmləri doktoru Zakir Eminov konfransda iştirak edən şagirdlərin mükafatlandırılmasının onları elm yolunda irəliyə doğru aparan, həvəsləndirən amil kimi qiymətləndirib, bu yolda onlara dəstək olmağın ali təhsil və elm müəssisələrinin borcu olduğunu vurğulayıb.

AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun icraçı direktoru, f.ü.f.d., dosent Ruhəngiz Cümşüdlü elm və təhsilin inteqrasiyasını dəstəkləyən konfransın iştirakçıları sırasında gələcəyin alimlərinin yetişdiyinə əminliyini bildirib. ADPU-nun Şamaxı Filialının direktor müavini f.ü.f.d. Şəsəddin Mikayılov konfransda iştirakın şagirdlərin inkişafında, sərbəst düşüncələrinin formalaşmasında mühüm rol oynayacağını, onların gələcəkdə müxtəlif sahələrdə elmimizin sərvətinə çevriləcəyini söyləyib.



AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Sübhan Talıblı konfransda gələcəyin alimlərinin üzə çıxarılaraq cəmiyyətə intellektual bir gənclik kimi təqdim edildiyini deyib. Eləcə də bu cür tədbirlər şagirdlərin sərbəst fikir yürüdə bilməsi, mütəmadi olaraq alim və mütəxəssislərlə görüşlərin keçirilməsi onların formalaşması üçün mühüm əhəmiyyət kəsb edir. S.Talıblı qeyd edib ki, bu konfransın keçirilməsi, istedadlı uşaqların üzə çıxarılması Türk dünyası şagirdlərinin ideya və düşüncə birliyi üçün də zəmin yaradır.

Konfrans daha sonra öz işini "Azərbaycan dili və ədəbiyyat", "Tarix", "Riyaziyyat", "Fizika və astronomiya", "Kimya - biologiya", "Rəqəmsal bacarıqlar, STEAM", "Coğrafiya" və "Estetik və fiziki tərbiyə" bölmələrində davam etdirib. Konfransda 82 şagird öz elmi işlərini təqdim edib. Konfransın yekununda hər bölmə üzrə yüksək nəticə göstərən 3 şagird mükafata layiq görülüb.

Konfransın bağlanış mərasimində mükafata layiq görülən şagirdlər müvafiq dərəcəli medallar, diplomlar və qiymətli hədiyyələrlə, bütün iştirakçılar sertifikatla təltif olunub. Həmçinin şagirdlərin elmi rəhbərlərinə sertifikatlar, münsiflər heyətinin üzvlərinə, tərəfdaş təşkilatlara, informasiya və təşkilati dəstək göstərənlərə təşəkkürnamələr təqdim edilib.

**Oruc MUSTAFAYEV**